GÜNDOĞAR

10 avqust 2020-ci il № 15-16 (6742)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı çıxışının əsas məqamları

2020-ci ilin iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmiş və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olmuş, yaralanmışdır. Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur. Azərbaycan Silahlı Qüvvələri tərəfindən hərbçilərimizin intiqamı alınmış, onların qanı yerdə qalmamış və düşmənə elə bir zərbə endirilmişdir ki, uzun illər bundan sonra da yaddan çıxarmayacaqdır.

Təhlükəsizlik Şurasının toplantısı çağırılmış, vəziyyət müzakirə edilmişdir. Operativ vəziyyət imkan verən kimi jurnalistlər, səfirliklərin nümayəndələri həmin bölgəyə dəvət ediləcək, onlar vəziyyətlə tanış olacaq və yerində görəcəklər ki, bu təxribatı törədən kimdir. Düşmən təxribatı nəticəsində şəhid olan general-mayor Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmiş, yüksək dövlət ordeni ilə təltif edilmişdi. Bütün şəhidlərin intiqamı qısa zamanda artıqlaması ilə alınmışdır. Düşmənin onlarla hərbçisi məhv edilmiş, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edilmişdir. O cümlədən, onların postu və bütün infrastrukturu yox edilmişdir. Bu əməliyyat, son günlər ərzində baş vermiş hərbi toqquşma - bizim növbəti şanlı qələbəmizdir. Son əməliyyatda Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərmişdir. 2020-ci il, 12 iyul əməliyyatının Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. 2018-ci ildə də uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürülmüş və işğalçılar o bölgələrdən qovulmuşdur. Aprel döyüşlərində olduğu kimi, bu dəfə də mənfur qonşu ən çirkin əməllərə əl atmışdır. Bizim kəndlərimizi atəşə

tutmuş və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Mülki əhaliyə qarşı törədilən cinayətlər bir daha onu göstərir ki, Ermənistan faşist dövlətidir.

Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərcməclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. Bu gün Azərbaycanın güclü ordusu var. Qüdrətli Azərbaycan dövləti öz ordusunun, qəhrəman döyüşçülərinin gücü ilə işğal altında qalan torpaqlarımızda mənfur erməni qüvvələrini məhv etməyə hər an hazırdır. Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərmişdir.

Ermənistan tərəfindən törədilən hərbi təxribatın səbəbi Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır. Bu, heç kimə sirr deyil. Xaricdən maliyyələşən, xarici fondlardan maaş və təlimat alan, onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yolla zəbt edəndən sonra bir çox vədlər vermişdi. Ermənistanda demokratik prinsiplər tamamilə pozulub, Venesiya Komissiyasının tövsiyələri rədd edilib, siyasi opponentlər təqib olunur və diktatura hökm sürür. Ona görə də, indi Ermənistan rəhbərliyinə hansısa bir böhranlı vəziyyət lazımdır ki, ictimai fikri bu əsas məsələlərdən yayındırsın və bu təxribata şüurlu şəkildə əl atıldı. Operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, şəhərlər boşalır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır. Çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmiş, yardım istəmiş, hay-haray qaldırmışdı ki, qoymayın, bizi burada indi boğacaqlar, məhv edəcəklər.

Təxribat törədiləndən dərhal sonra, iyul ayının 12-də günorta saatlarında Prezident müvafiq göstərişlər vermiş və beynəlxalq təşkilatlardakı nümayəndələrin, o cümlədən, parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər biri təlimat almış və təmsil olunduqları təşkilatların rəhbərlərinə məsələ ilə bağlı dolğun məlumat vermişdilər. Diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır, kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Ölkə başçısı tərəfindən bu məsələ dəfələrlə müxtəlif tədbirlərdə, Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə dilə gətirilmişdir. Bütün beynəlxalq təşkilatlar, o cümlədən, Minsk qrupunun həmsədrləri bunu bilirlər. XİN beynəlxalq təşkilatlarda Azərbaycana ünvanlanan əsassız ittihamlara cavab verməlidir, susmalı deyil.

Dövlət başçısı bütün vacib məsələləri xalq ilə bölüşür, həm məsləhətləşir, həm öz fikirlərini, öz siyasətini deyir və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edir. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Azərbaycanda hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir. Bu günlərdə Azərbaycan tək qalmadı, qardaş Türkiyə Cümhuriyyəti və onun Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanı dəstəklədi. Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük. Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda, digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verdi.

Ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi. Ordumuzun düşmən hücumunu qəhrəmancasına dəf etdiyi gecə döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına gəldi. Ancaq əfsuslar olsun ki,sonra oraya görünür bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil oldular. Onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdılar. Təbii ki, Daxili İşlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu.

Biz birlikdə güclüyük

Siyasi partiyalar ordumuzdan qürur duyduqlarını, onunla bir olduqlarını bəyan etdilər

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda əsl Ali Baş Komandan-xalq, ön və arxa cəbhə birliyi, vəhdəti yaşanır. Siyasi baxışlarından, yaşından, statusundan, məşğuliyyət növündən, cinsindən asılı olmayaraq Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, mənfur düşmənin növbəti dəfə Vətən torpaqlarına göz dikdiyi zaman bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə etmişlər.

Ölkə ərazisində fəaliyyət göstərən siyasi partiyalar da bu prosesdən geri qalmamışlar, praktiki olaraq Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq müxtəlif proqramı, platforması, fərqli məqsədi və məramı olan siyasi partiyalar iqtidar partiyası ilə olan fikir ayrılığını, məsələlərə müxtəlif yanaşma tərzini bir yana qoyaraq, həmrəylik nümayiş etdirmiş və Ali Baş Komandanın yanında olduqlarını bəyan etmişlər. 43 partiya sədrinin imzaladığı Birgə Bəyanatda birmənalı şəkildə bildirilir: "Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik".

Bu birgə bəyanatdan sonra Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədov, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn ayrıca bəyanatlar verərək Vətənin düşmən təcavüzünə məruz qaldığı günlərdə Ali Baş Komandana və ordumuza dəstək olduqlarını demişlər. Xalq-ordu həmrəyliyi çərçivəsində döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına gəlmişdir. Ancaq əfsuslar olsun ki, hər zamankı kimi onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışmışlar. Siyasi partiyalar milli həmrəylik nümayiş etdirərək Azərbaycan dövlətinin və Ali Baş Komandanın yanında olduqlarını birmənalı olaraq dilə gətirsələr də təəssüf ki, bəzi siyasi çevrələr bu tələtümlü günlərdə hadisələrə münasibət bildirməyərək kənardan müşahidə etməyə üstünlük vermişlər. Yəqin ki, onlar adətləri üzrə yenə də hansı isə neqativ məqamlar axtarmağa, özlərini fərqli göstərmək üçün tənqid etməyə, mənasız xırdalıqları qabartmağa üstünlük verəcəklər. Əlbəttə, Azərbaycan xalqı da bu çətin günlərdə kimin kim olduğunu görür, hansı siyasi güclərin Vətən və dövlətçiliyi siyasi ambisiyadan üstün tutduğunu görür, onlara ən layiqli cavabını isə seçkilərdə verərək, layiq olduqları yeri göstərir.

Dünya Azərbaycanlıları ayağa qalxdı

Atalar düz deyib ki, el bir olsa dağ oynadar yerindən. Bu doğrudan da delədir. Barmaqlar açılanda zərbəsi zəif olur, büküləndə isə ağır yumruğa çevrilir. Ermənistan silahlı qüvvələrinin bu ilin 12 iyul tarixindən etibarən Azərbaycan və Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində başlatdığı hərbi təxribatla bağlı xalqımızın tutduğu mövqe, nümayiş etdirdiyi möhkəm birlik bu sadə həqiqəti bir daha əyani şəkildə təsdiq elədi.

İndiyə qədər ermənilərin əsas üstünlüklərindən biri bizə nisbətən daha mütəşəkkil olmaları, məqamında birləşməyi bacarmaları olub. Biz isə buna çox da əhəmiyyət verməmişik, dağınıq, pərakəndə hərəkət etmişik. Sovet dövründə birləşib bir olmağımıza imkan verilməyib, müstəqillik əldə etdikdən sonra isə başımız daha çox daxili çəkişmələrə qarışıb. Bu gün isə vəziyyət tamam başqa cürdür, xalqla iqtidarın əsl birliyi yaranıb. Bunu xarici diasporlarımızın fəaliyyətində xüsusilə aydın müşahidə etmək olur.

Vaxtilə bizim xarici diasporlarımız demək olar tamamilə yox dərəcəsində idi. Bunun da əsasını, bünövrəsini ilk dəfə məhz möhtərəm ulu öndər Heydər Əliyev qoydu. Ümummilli lider hansı ölkəyə səfər etsəydi ilk növbədə orada yaşayan azərbaycanlıları bir yerə yığaraq onlarla səmimi söhbətlər aparır, vətənpərvərlik hisslərini artırırdı. İzah edirdi ki, harada, hansı ölkədə yaşamasından, işləməsindən, təhsil almasından asılı olmayaraq xalqın, millətin hər bir fərdinin, nümayəndəsinin fikri, diqqəti daim mənsub olduğu xalqın,

millətin dövlətinin, dövlətçiliyinin yanında olmalı, var qüvvəsi ilə bu dövləti, dövlətçiliyi müdafiə etməlidir. O vaxtdan çox illər keçib, dünyanın, demək olar, bütün ölkələrində möhkəm, mütəşəkkil diasporlarımız yaranıb. Onlar artıq lazım gələndə heç yerdən, heç kəsdən xüsusi tapşırıq, göstəriş, sifariş gözləmədən özləri nümayişlərə çıxır, piketlər təşkil edir, xalqımızın, millətimizin haqq sözünü, haqq səsini, haqq tələbini lazımi ünvanlara, təşkilatlara çatdırırlar.

Bu dəfə də belə oldu. Dünyanın ən böyük ölkələrində yaşayan azərbaycanlılar bir yerə yığışaraq mitinqlər, piketlər təşkil etdilər, işğalçı Ermənistanın özbaşına hərəkətlərinə qarşı öz etiraz səslərini qaldırdılar, beynəlxalq təşkilatlardan onların yerlərində oturdurmalarını tələb etdilər. Bu möhkəm birlik, Azərbaycanın xarici ölkələrdə durmadan artan hörməti, nüfuzu xain düşmənlərdə qəzəb, qısqanclıq hissləri doğurmaya bilməzdi. Ona görə onlar sərhəd xəttində olduğu kimi, xarici ölkələrdə də qarışıqlıqlar salmağa başladılar, radikal erməni qüvvələri azərbaycanlı icmanın üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı son dərəcə aqressiv təxribatçı əməlləri həyata keçirdilər. Bu qüvvələr Fransada, Böyük Britaniyada, İsveçdə, Polşada, Avstraliyada, ABŞ-da, Niderlandda, Belçikada Azərbaycanın diplomatik nümayəndəliklərinin binalarına, bu ölkələrdə dinc yolla fikirlərini ifadə edən azərbaycanlı nümayişçilərə qarşı özündə vandalizm və terror elementlərini ehtiva edən təxribatlar törətdilər, bilərəkdən azərbaycanlı icmaların üzvlərinə, diplomatlara, onların mülklərinə xəsarət yetirdilər. Bu, qəlbimizi nə qədər ağrıtsa da, bütün dünya açıq şəkildə görür ki, kim kimdir, kim sülh istəyir, kim zorakılıq, savaş.

Xalqımızın, millətimizin birliyi, mehribanlığı artıb möhkəmləndikcə ermənilərin iç üzü daha da açılacaq, daha aydın görünəcək, Ermənistan dövlətinin işğalçılıq siyasəti daha aşkar üzə çıxacaq. Biz buna əminik.

Neftçalalılar da dövlət başçısı ilə, Ali Baş Komandanla həmrəylik nümayiş etdirdilər

İllərdən, on illərdən bəri təcavüzkar siyasət apararaq özgə torpaqlarına göz dikən Ermənistan avantürist siyasətini bu gün də davam etdirməkdədir. Azərbaycanın son illərdəki nailiyyətlərinin durmadan genişlənməsi, beynəlxalq aləmdəki nüfuzunun getdikcə artması Ermənistanı, bu təcavüzkar siyasətin başında dayananlar, o cümlədən baş nazir Nikol Paşinyanı şübhəsiz ki, qıcıqlandırmaya bilməzdi. Koronavirus pandemiyasının çətinliklərinə baxmayaraq Azərbaycanın öz xalqını, millətini bu ağır bəladan qorumaqla yanaşı dünyanın təhlükəsizliyinə verdiyi sanballı töhfələrin beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanması da diqqətdən kənarda qala bilməzdi.

Ermənistanda isə bunun əksinədir. Baş nazir seçildikdən sonra Paşinyanın verdiyi vədlərin tamamilə iflasa uğraması, insanların həyat səviyyəsinin durmadan aşağı düşməsi, beynəlxalq aləmdəki uğursuzluqlar ölkədəki böhranın daha da dərinləşməsini sürətləndirdiyindən Ermənistan rəhbərliyi çıxış yolunu yenə Qarabağ kartından istifadə etməklə cəbhə xəttində yeni təxribatlar törətməkdə gördü. Ancvq necə deyərlər, qaş qayırdıqları yerdə vurub gözlərini də çıxardılar.

Deyir Allah kimisə cəzalandırmaq istədikdə birinci növbədə onun ağlını əlindən alır. Paşinyanın hərəkətinə baxanda bunun həqiqət olduğuna bir daha inanırsan. Əslində 2016-cı ilin Aprel döyüşləri onlar üçün çox ciddi bir dərs olmalı idi. Ermənilər, xüsusilə baş nazir Paşinyan bundan nəticə çıxarmalı, Azərbaycan ordusunun gücünü, qüvvəsini düzgün qiymətləndirməli idilər. Ancaq neyləyəsən ki, keçinin əcəli çatanda gəlib buynuzunu çobanın çomağına sürtdüyü kimi onlar da Azərbaycan ordusunu yenidən sınağa çəkmək istədilər.

Aprel döyüşlərindən və "Günnüt" əməliyyatlarından sonra Ermənistanla sərhəd boyu kəndlərin sakinlərinin iyulun 12-də və 13-də düşmən təxribatlarının qarşısının alınmasında gördükləri qəhrəmanlıqlar onların ordumuza olan inamını daha da artırdı. Orada yaşayan insanlar bir daha əmin oldular ki, Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin verdiyi hər bir əmr qeyd-şərtsiz yerinə yetirilir. Necə ki, yerinə yetirildi və düşmənə layiqli dərs verildi. Əks həmlələrə tab gətirməyən düşmən əsgərləri, zabitləri qaçıb canlarını qurtarmasaydılar, yəqin ki, itkiləri daha çox olardı.

Həmin gərgin günlərdəki qürurverici hallardan biri

də xalqımızın birlik, həmrəylik nümayiş etdirməsidir. Cəbhə boyu ərazilərdə yaşayan insanların təxribatlara uymayaraq yerlərində möhkəm dayanmaları, bu ərazilərdəki gənclərin də əsgərlərimizlə birlikdə düşmənə qarşı döyüşmək, vuruşmaq əzmində olduqlarını bildirmələri doğrudan da qürurverici idi. Aprel döyüşlərində olduğu kimi xalq bu dəfə də öz şəhidlərini mərdliklə qarşıladı. İnsanlar Vətənin bütövlüyü uğrunda canlarını qurban verən igidlərini böyük ehtiramla torpağa tapşırdılar. Bakıda "Şəhidlər Xiyabanı"na toplaşan minlərlə insanlar ordumuzla, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı ilə, iqtidarla birlik, həmrəylik nümayiş etdirdilər. Çox təəssüf ki, qara qüvvələr dar gündə yumruq kimi birləşən xalqımızın düşmənə olan qəzəbindən, nifrətindən bu dəfə də öz çirkin məqsədləri üçün istifadə edərək təxribatlar törətdilər. Amma ordumuz kimi təhlükəsizlik orqanlarımız da yerində idilər. Bu təxribatların qarşısı da qətiyyətlə alındı, pozuculuq hərəkətlərinə yol verilmədi.

Həmişə dövlətin, dövlətçiliyin yanında olan rayonumuzun sakinlərinin bu dəfə də xalqımızla birlikdə olması bizim üçün xüsusilə qürurverici idi. İyulun 13-də səhər tezdən rayon icra hakimiyyətinin qarşısından asılan üçrəngli bayraqlarımızı görən hər bir sakin bir an da olsa ayaq saxlayırdı. Bu birliyimizin, həmrəyliyimizin bariz nümunəsi idi. Həmin çətin günlərdə neftçalalı gənclərin də silaha sarılaraq yağı düşmənə qarşı vuruşmağa hazır olduqlarını bildirməsi unudulmazdır. Rayon çağırış və səfərbərlik şöbəsinə qısa müddətdə 120-dən çox gəncin müracıəti bunu əyani şəkildə təsdiqləyir. Bu birlikdən, bütövlükdən necə sevinməyəsən, qürurlanmayasan?! Neftçalalılar ötən əsrin sonlarındakı Qarabağ döyüşlərində, 2016-cı ilin Aprel döyüşlərində necə mərd, torpaqcanlı olduqlarını dəfələrlə sübuta yetirmişdilər. Həmin dövrdə ölkə üzrə ən çox şəhid verən rayonlardan biri də elə Neftçala olmuşdu.

Biz neftçalalılar həmyerlilərimizin igidlikləri, mərdlikləri ilə necə sevinib fəxr etmişdiksə, iyulun 12-də, 13-də erməni təxribatının qarşısının alınmasındakı qəhrəmanlıqlarına görə general-mayor Polad Həşimovu, polkovnik İlqar Mirzəyevi, mayor Anar Novruzovu, mayor Namiq Əhmədovu, baş leytenant Rəşad Mahmudovu, çavuş Vüqar Sayadovu, əsgərlər Xəyyam Daşdəmirovu, Elçin Mustafayevi, müqəddəs torpaqlarımız uğrunda canlarını qurban verən digər şəhidlərimizi də eləcə sevib qəlbimizdə yaşadacağıq. Yaşadacağıq ki, gələcək nəsillərə nümunə göstərək, onları da qəhrəmanlıqlara ruhlandıraq.

Habil ƏSƏDOV

Su ehtiyatlarından səmərəli istifadə bu gün dünənkindən daha böyük diqqət tələb edir

İyulun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib. Müşavirəni giriş nitqi ilə açan dövlət başçısı ölkədə yaranmış su problemi ilə əlaqədar müvafiq qurumların rəhbərlərinə ciddi tapşırıqlarını verib. Rayonumuzdakı vəziyyəti gündəmə gətirərək onlardan konkret hesabat tələb edib:

Prezident İlham ƏLİYEV: Neftçala rayonunda vəziyyətlə bağlı nə deyə bilərsiniz?

Qorxmaz HÜSEYNOV: Hazırda Neftçalada vəziyyət gərgindir, cənab Prezident. Orada baş verən məlum hadisə ilə bağlı Neftçala şəhəri və rayonun 38 kəndi içməli sudan məhrum olub. Fövqəladə Hallar Nazirliyi, rayon icra hakimiyyəti və bizim dəstəyimizlə orada həm maşınlarla və modul tipli qurğularla su daşınır. Çənlər quraşdırılıb, rayonda həyətlərə və həmin çənlərə suyu verməklə biz vətəndaşlara...

Prezident İlham ƏLİYEV: İndi məsələ əsaslı şəkildə nə vaxt həll olunacaq?

Qorxmaz HÜSEYNOV: Cənab Prezident, məsələnin həlli üçün Siz keçən il 5 milyon vəsait ayırmışdınız, bu il investisiya proqramında 5 milyon vəsait ayrılıb. Biz layihənin tikintisinə başlamışıq və daha etibarlı mənbə olaraq Sizin iştirakınızla təməlqoyması və bir neçə rayonda açılışı olan Şirvan-Muğan magistral xəttindən Salyan ərazisinə 44 kilometr magistral xəttin tikintisinə artıq başlanılıb. Bu ilin noyabrında başa çatması planlaşdırılır və eyni zamanda bu xəttboyu bütün kəndlərə də biz gələcəkdə investisiya proqramı...

Prezident İlham ƏLİYEV: Yəni nə vaxt Neftçala şəhəri və o kəndlər, nə vaxt o məsələ həll olunacaq? Vətəndaşlar bunu eşitmək istəyir.

Qorxmaz HÜSEYNOV: Cənab Prezident, noyabr ayında biz içməli suyu şəhərin özündə və şəhər şəbəkəsindən qidalanan qəsəbələrdə mövcud şəbəkəyə bağlayacağıq. Amma həmin kəndlərə xətlərin çəkilməsi üçün əlavə vəsait ayrılması üçün biz təklif hazırlayacağıq.

Prezident İlham ƏLİYEV: Bəs noyabr ayına qədər məsələ necə həll olunacaq?

Qorxmaz HÜSEYNOV: Yalnız maşınlarla, indiki vəziyyətdə suyu biz qismən veririk ki, texniki məqsədlərə istifadə edilsin.

Prezident İlham ƏLİYEV: Zeynal Nağdəliyev, məlumat verin, bu maşınlarla ki, deyir, suyu çatdırırıq, bu, kifayət edir şəhərə? Bu haqda məlumatınız var?

Zeynal NAĞDƏLİYEV: Cənab Prezident, ümumiyyətlə, məlumat belədir ki, su qıtlığı var.

Prezident İlham ƏLİYEV: Mən bilirəm su qıtlığı var. Deyirəm, Qorxmaz Hüseynov deyir ki, maşınlarla çatdırırıq, su ilə təmin edirik. Mən soruşuram, doğrudan, belədir, yoxsa yox?

Zeynal NAĞDƏLİYEV: Su verilir, amma icazə verin, cənab Prezident, araşdırım Sizə məruzə edim.

Prezident İlham ƏLİYEV: Araşdır. Şahin Mustafayev, siz bu məsələyə komissiyada baxmısınız?

Şahin MUSTAFAYEV: Bəli, cənab Prezident, biz bu məsələyə baxmışıq. Neftçala şəhərində vəziyyət çox ağırdır, gərgindir, maşınlarla su daşınır. Məruzə olunduğu kimi, noyabr ayında bunu başa çatdıracaqlar. Qorxmaz Hüseynov məruzə etməlidir, orada investisiya problemləri də var. Biz sonuncu komissiyada İqtisadiyyat Nazirliyinə də məlumat verdik, tapşırıldı ki, onlar da baxsınlar, çatışmayan vəsait haqqında araşdırmalar aparsınlar ki, Sizə məruzə olunan müddətdə bu məsələ öz həllini tapsın. Eyni zamanda cənab Prezident, biz məsələyə bir qədər qlobal yanaşmaq istərdik. Çünki bir sıra bizim yaşayış məntəqələrimiz birbaşa Kür çayından su götürürlər, necə ki, Neftçala götürürdü. Bu, gələcəkdə, qeyd etdiyiniz kimi, bilmək olmaz suyun həcmi necə olacaq. Biz qış aylarında məcbur olacağıq ki, Mingəçevir su anbarında ehtiyatlarımızı yığaq. Belə olan halda, ola bilsin ki, gələcəkdə bizim məntəqələrdə - Kür çayından birbaşa su götürən məntəqələrdə su çatışmazlığı olsun. Ona görə də biz düşünürük ki, bu məsələnin üzərində də çalışmaq lazımdır. Alternativ imkanlar araşdırılmalıdır ki, Kür çayından birbaşa içməli su götürən yaşayış məntəqələrinin təchizatını davamlı və dayanıqlı edək.

Prezident İlham ƏLİYEV: Mütləq çalışın, tezliklə bu məsələ öz həllini tapsın. O vaxta qədər indi maşınlarla su daşınır, mənə dəqiq məlumat verərsiniz, bu, vətəndaşları təmin edir, yoxsa yox? Əgər təmin etmirsə, onda əlavə imkanlar tapmaq lazımdır ki, maşınlarla vətəndaşları təmin edə biləcək səviyyədə su daşınıb, onlara çatdırılsın.

Müşavirədən bir neçə gün sonra, iyulun 27-də Prezident İlham Əliyevin"Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalaması, Ali dövlət sənədinə uyğun olaraq "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nı təsdiq etməsi bununla bağlı görüləcək işlərə, həyata keçiriləcək tədbirlərə geniş aydınlıq gətirdi. Bu bir daha onu göstərir ki, başlayan quraqlıq qlobal təhlükəyə çevrilə biləcəyindən Azərbaycan su qıtlığı problemini həll etmək üçün bütün imkanlarını səfərbər edir. Yəqin ki, yaxın vaxtlarda biz bu tədbirlərin əyani nəticələrini görəcək, müsbət irəliləyişlərin şahidi olacağıq.

Prezident İlham Əliyevin tapşırığına əsasən Neftçala rayonunda içməli su ilə bağlı problemin aradan qaldırılması üçün zəruri işlər görülür

İyulun 23-də Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda keçirilmiş müşavirədə dövlətimizin başçısı Neftçala rayonunda içməli su ilə bağlı yaranmış problemin aradan qaldırılması üçün tapşırıqlar verib. Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov rayonda yaranmış su probleminin aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı jurnalistləri məlumatlandırıb.

Mirhəsən Seyidov Kür çayının səviyyəsinin aşağı düşməsi və Xəzər dənizinin suyunun çaya qarışaraq onu şorlaşdırması nəticəsində əhalinin içməli su təminatında, əkin sahələrinin suvarılmasında yaranmış problemin ilk günlərdən Prezident İlham Əliyevin göstərişi ilə ciddi nəzarətə götürüldüyünü bildirib.

Rayon icra hakimiyyətinin başçısı qeyd edib ki, indiyədək Neftçala rayonunun əhalisinin içməli su ilə təminatı 36 sudaşıyan texnika vasitəsilə həyata keçirilib və gündəlik olaraq əhaliyə 600 tonadək su çatdırılıb. İyulun 23-də keçirilən müşavirədən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə Neftçalanın su təminatının və əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması üçün müvafiq qurumlar, ətraf rayonların yerli icra hakimiyyəti orqanları tərəfindən rayona 22 yeni sudaşıyan texnika cəlb olunub. Hazırda əlavə 18 su çəni qurulub və onların ümumi sayı 65-ə çatıb.

M.Seyidov deyib ki, artıq müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birgə Neftçalada su təminatı ilə bağlı problemin həlli istiqamətində müəyyən işlər həyata keçirilib. Əgər indiyədək görülmüş işlər nəticəsində əhalinin 30 faizinin içməli suya tələbatı ödənilirdisə, dünənki müşavirədə verilən tapşırıqların icrasından sonra bu rəqəm artıq 50-60 faizə çatacaq.

Neftçala şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncamın icrası çərçivəsində görülən işlərdən danışan Mirhəsən Seyidov qeyd edib ki, hazırda Salyan rayonundan Neftçalaya çəkilən 44 kilometrlik magistral kəmərin tikintisi sürətləndirilib. Kəmərin 10 kilometrlik hissəsi tam hazır vəziyyətə gətirilib. Bu il investisiya proqramında layihənin tikintisinin davam etdirilməsi üçün daha 5 milyon manat vəsait ayrılıb.

Rayonda mövcud olan modul tipli sutəmizləyici qurğuların vəziyyəti barədə məlumat verən M.Seyidov deyib ki, rayondakı 42 qurğudan 36-sı hazırda fəaliyyətdədir. Rayonun yeddi kəndi suyun şorlaşmasından əziyyət çəkməyib. Bu kəndlərdən üçünün suyu Akkuşa çayından götürülür, digər dörd kənd isə Salyan-Neftçala sərhədində yerləşdiyi üçün orada suyun şorlaşması müşahidə olunmayıb.

"Neftçalada əkin sahələrinin suvarılması ilə bağlı o qədər də ciddi problem yaşanmayıb. Hazırda müəyyən problemlər var. Bu problemlərin həlli istiqamətində operativ tədbirlər həyata keçirmək məqsədilə bütün məsələlər müzakirə olunur və yaxın zamanlarda fermerlərin diqqətinə çatdırılacaq", - deyə icra başçısı bildirib.

Kürün deltasındakı vəziyyətə toxunan M.Seyidov deyib ki, ilkin olaraq deltanın tənzimlənməsi üçün qazma işlərinin dayandırılması və orada yeni şlüzlərin quraşdırılması təklif edilir. "Hesab edirəm ki, əgər biz modul tipli qurğularla insanların su təminatını, əkin yerlərinin suvarılmasını həyata keçirə və nasosların fəaliyyətini bərpa edə bilsək, deltada hər hansı işin görülməsinə ehtiyac qalmayacaq", - deyə Mirhəsən Seyidov qeyd edib.

Vurğulanıb ki, müşavirədə Prezident İlham Əliyevin Neftçaladakı vəziyyətə xüsusi diqqət yetirməsi dövlətimizin başçısının bütün vətəndaşların problemlərinə həssas yanaşdığını, onları narahat edən məsələlərin həllinə böyük önəm verdiyini göstərir.

Dövlət, rayon rəhbərliyi bütün tədbirləri görür, bəs biz?!

İyun ayından başlayaraq təbii axarın olmaması ilə əlaqədar Xəzər dənizinin suyunun Kür çayının suyuna qarışaraq onu şorlaşdırması rayonumuzda çox ciddi çətinliklər yaratdığından bu məsələ ilk gündən rayon rəhbərliyinin diqqətindədir. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun sərəncamına əsasən elə həmin gündən Neftçala Rayon İcra Hakimiyyətində yaradılan Operativ Qərargah su qıtlığının aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər görür. Neftçala şəhəri ilə yanaşı Bankə, Həsənabad, Xıllı qəsəbələrində, Kürboyu kəndlərdə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün sistemli iş aparılır. Kürdə şorlaşma çay boyunca yuxarılara doğru irəlilədikcə vəziyyət daha da gərginləşir. Son günlər digər ərazilərdə, o cümlədən Xol zonasında şirin suya olan tələbatın xeyli dərəcədə artması da bununla bağlıdır. On minlərlə insanın təmiz içməli suya olan tələbatının ödənilməsi olduqca çətindir. Amma rayon rəhbərinin fəal müdaxiləsi, ayrı-ayrı qurumlar qarşısında qaldırdığı məsələlər, daxili imkanların səfərbərliyə alınması öz müsbət nəticəsini verir. "Azərsu" ASC-nin, Fövqəladə Hallar Nazirliyinin rayonumuza ezam olunmuş xüsusi təyinatlı nəqliyyat vasitələri, digər idarə və müəssisələrə məxsus bu təyinatdan olan maşınlar xüsusi qrafik əsasında təyin olunmuş yerlərə, ərazilərə su daşıyaraq müəyyənləşdirilmiş böyük həcmli çənlərə, hovuzlara boşaldırlar. Əhali də həmin sudan ehtiyacına uyğun götürərək istifadə edir, tələbatını ödəyir. Bununla yanaşı ayrı-ayrı şəxslərin köməyi ilə əhalinin sıx olduğu yerlərdə qazılan quyular, istifadəyə verilən qurğular da insanların suya olan tələbatlarının ödənilməsində az rol oynamır.

Neftçala şəhərinin və ətraf yaşayış məntəqələrinin içməli su təchizatının yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin sərəncamına əsasən Neftçalanın sukanalizasiya sisteminin yenidən qurulması məqsədilə "Azərsu" ASC-yə ayrılmış 5 milyon manat vəsaitə uyğun olaraq Salyan rayonu ərazisində tutumu 7500 kubmetr olan su anbarının, anbardan rayonumuza doğru uzanacaq 44 kilometr uzunluğunda magistral su xəttinin tikilməsində işlərin uğurla davam etdirilməsi yaxın zamanlarda əhalinin içməli suya olan tələbatının daha dolğun ödənilməsinə öz müsbət təsirini göstərəcəkdir. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun rəhbərliyi altında mütəxəssislərin, ayrı-ayrı məsul şəxslərin buraya gələrək işin gedişi ilə yerində tanış olması, lazımi köməkliklərin göstərilməsi hər kəsi ürəkdən sevindirir.

Göründüyü kimi, dövlət, rayon rəhbərliyi yaranan problemin, çətinliyin aradan qaldırılması istiqamətində lazım olan bütün tədbirləri görür və yəqin bundan sonra da görüləcəkdir. Amma bizim özümüzdən də çox şey asılıdır. Vaxtilə şahə qalxan, bəndi, bərəni uçuran, ətraf ərazilərə ciddi ziyan vuran Kür son on ilin içində əriyərək belə vəziyyətə düşübsə, deməli, ana təbiətin bizə bəxş etdiyi təbii nemətlər tükənməz deyil. Ona görə onların hər birindən, o cümlədən sudan da çox qənaətlə istifadə etməliyik, hər litrinin yox, hər damcısının, hər qətrəsinin qədrini bilməliyik, israfçılığa yol verməməliyik. Təəssüf, min təəssüf ki, həmişə belə olmur. Olmadığına görə də itirdiklərimizin əzabını, əziyyətini çəkirik.

Bu da bizim üçün çox ciddi bir sınaq, dərs olmalıdır. Gərək hər birimiz bu dərsdən, sınaqdan nəticə çıxaraq. Nəticə çıxaraq ki, sabah daha böyük çətinliklərlə, problemlərlə üzləşməyək. Bir də unutmayaq ki, həyat davam edir, dünyaya yeni nəsillər gəlir. Biz payımıza düşəni qənaətlə işlətməliyik ki, bizdən sonra gələnlər də bu nemətlərdən yetərincə faydalana, istifadə edə bilsinlər. İsrafçılığımıza, məsuliyyətsizliyimizə görə bizi qınayıb lənətləməsinlər.

"GÜNDOĞAR"

Meliorasiya işləri də genişlənir

Bu il rayonumuzda kənd təsərrüfatı sahəsində 5972 hektar sahədə pambıq, 21630 hektar sahədə taxıl, 8526 hektar sahədə yonca, 100 hektar sahədə bağ ,170 hektar sahədə bostan, 1400 hektar sahədə həyətyanı sahənin əkilməsi və suvarılması nəzərdə tutulmuşdur. Həmin sahələrdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması və daha çox məhsul əldə edilməsi məqsədilə Neftçala Suvarma Sistemləri İdarəsi tərəfindən geniş meliorativ tədbirlər həyata keçirilir. Bu məqsədlə 2020-ci ilin 7 ayı ərzində 310 km suvarma kanalının lildən təmizlənməsi nəzərdə tutulduğu halda, 311,69 km suvarma kanalı lildən və kol-kosdan təmizlənərək qaydaya salınmışdır.

Suvarma kanallarında hidrotexniki qurğuların təmiri də daim diqqətdədir. Nəzərdə tutulmuş 47 ədəd hidrotexniki qurğunun cari təmiri və bərpası nəzərdə tutulduğu halda, 58 ədəd hidrotexniki qurğunun saz vəziyyətə gətirilməsi çəkilən birgə zəhmətin bəhrəsidir.

Kollektor-drenajlarda ötən ilin 7 ayı ərzində rayon ərazisində Aşağı Muğan Meliorativ Sistemlərinin İstismarı İdarəsi və Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi tərəfindən 189,33 km kollektor drenaj şəbəkəsinin lildən təmizlənməsi, 19 ədəd hidrotexniki qurğunun cari təmir edilməsi meliorativ tədbirlərin daha da yaxşılaşdırılmasına imkan yaradacaqdır.

Məsələnin aktuallığını nəzərə alaraq rayon icra hakimiyyəti bu işləri xüsusi nəzarətə götürmüşdür. Görülən işlərin davamı olaraq avqust ayı ərzində rayon ərazisində 45,91 km suvarma kanalının , 39 km isə kollektor-drenaj şəbəkəsinin təmizlənməsi nəzərdə tutulmuşdur.

Sosial təminat: YARDIMLAR SAHİBLƏRİNƏ ÇATDIRILDI

İnsanların mənəvi cəhətdən saflaşmasında, kamilləşməsində dövlət qurumlarının, ayrı-ayrı təşkilatların həyata keçirdikləri tədbirlərlə yanaşı İslami dəyərlərin, dini inancların, müqəddəs bayramların da rolu az deyildir. Onların arasında Qurban bayramının öz yeri var. Belə əziz günlərdə müsəlmanlar Allah yolunda kəsdikləri qurbanları ilə Uca Yaradana yaxınlığın böyük sevincini yaşayır, xeyirxah amallar yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Ölkəmizdə keçirilən dini bayramlar, o cümlədən müqəddəs Qurban bayramı insanların ürəklərini saflaşdırmaqla sosial yardımlaşmanın, mərhəmət və xeyirxahlıq duyğularının əsl təntənəsinə çevrilir.

Bu il də belə oldu. Koronavirus pandemiyasının törətdiyi çətinliklərə baxmayaraq insanlar bu il də karantin qaydalarını gözləməklə Allah yolunda qurbanlar kəsdilər. Belə günlərdə daim aztəminatlı ailələrin yanında olan, özünün yardımları ilə onları ürəkdən sevindirən Heydər Əliyev Fondu bu dəfə də nəcib ənənəsinə sadiq qaldı. Neftçalaya, neftçalalılara göndərdiyi bayram sovqatları ilə onlara böyük fərəh bəxş etdi. İyulun 30-da — Qurban bayramı ərəfəsində biz də bunun canlı şahidi olduq. Yardımların paylanmasına şəxsən nəzarət edən, hər kəsə qayğı və diqqətlə yanaşan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu Neftçala rayon şöbəsinin müdiri Zəfər Nağıyev dedi:

— Özünün xeyirxah əməlləri, dəyərli layihələri ilə insanları həmişə sevindirən, onlara yardım göstərən, dayaq olan Heydər Əliyev Fondu, fondun prezidenti çox hörmətli Mehriban xanım Əliyeva aztəminatlı ailələri, köməksiz və imkansızları xüsusilə diqqətdə saxladığından bu dəfə də onları unutmadı. Fond tərəfindən rayonumuza göndərilən 864 sovqat və qurban ətini yubanmadan sahiblərinə — ailə başçısını itirdiyinə görə müavinət alanlara, 18 yaşına qədər sağlamlıq imkanları məhdud olan uşaqlara və yaşları 65-dən yuxarı olan ahıl və tənha insanlara vaxtında çatdırmaq üçün dünəndən bəri fəal şəkildə çalışırıq. Sabah Qurban bayramı olduğundan işimizi bu gün axşama kimi yekunlaşdıracağıq. Yeri gəlmişkən deyim ki, bu il belə yardımları beşinci dəfədir ki, paylayırıq. Əksəriyyətini də Heydər Əliyev Fondu göndərib. Tarixi və əlamətdar günlərdə, el bayramlarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də imkansız ailələrdən köməyini əsirgəmir. Hörmətli nazir Sahil Babayev bu işə şəxsən nəzarət etdiyindən bu bizim də məsuliyyətmizi artırır.

Göndərilən yardımların, sovqatların ünvanlarına çatdırılmasında rayon icra hakimiyyəti, başçı aparatının müvafiq şöbələri bizə yaxından köməklik göstərirlər. Aztəminatlı ailələrə, imkansız şəxslərə göstərdikləri qayğı və diqqətə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri cənab Sahil Babayevə, rayon icra hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidova dərin təşəkkürümüzü və səmimi minnətdarlığımızı bildiririk. Biz də öz növbəmizdə çalışırıq ki, dövlətimizin qarşımıza qoyduğu vəzifələrin öhtəsindən layiqincə gələk, rayon əhalisinin xidmətində yetərincə dayanaq.

İyulun 31-də və avqustun 1-də rayonumuzda da çoxlu sayda qurbanlar kəsildi. Bu qurbanlar da əsasən aztəminatlı ailələr, kasıb insanlar arasında paylandı. Bayram namazı zamanı möminlər ölkəmizin əmin-amanlığı, xalqımızın xoşbəxtliyi üçün

Uca Yaradana dualar etdilər, Qadir Allahdan diləklərini dilədilər. Kəsilən qurbanlarınız qəbul olsun, əziz neftçalalılar!

H.ƏSƏDOV

"Neftçala Rayon İcra Hakimiyyətinin təkzibi"nə bizim əlavəmiz

Rayon icra hakimiyyətinin internet saytı görülən işlərin, həyata keçirilən tədbirlərin aynasıdır desək, yəqin ki, yanılmarıq. Neftçala ilə bağlı bütün məlumatlar burada yerləşdiyindən biz də onlardan yetərincə faydalanırıq. Təbii ki, yaxşı, ürək açan xəbərlər, məlumatlar daha çox olur. Belə məlumatları, xəbərləri oxuyanda adam doğrudan da sevinir, üreyi xoş hisslərlə döyünür. Neftçala bizimdirsə, buradakı ən adi təzəlik, yenilik də rayonumuz üçün bir uğurdur. Biz bunları necə görməyə, dəyərləndirməyə bilərik?!

İnsanlara narahatlıq gətirən çətinliklər, problemlər də var. Bunu etiraf etməmək mümkün deyil. Özü də bunlar dünənin deyil, illərin, on illərin yığılıb qalmış problemləridir. Onları nəinki bir gündə, bir ayda, heç bir ildə də aradan qaldırmaq, həll etmək çox çətindir. Bunun üçün vaxt, imkan, şəraitlə yanaşı həm də insanların xoş niyyəti, qarşıya qoyulan məqsəd uğrunda əlbir səyi gərəkdir.

Mətbuat olaraq biz də daim rayon rəhbərinin yanındayıq. İllərdən bəri yığılıb qalmış bu çətinliklərdən, problemlərdən bizim də xəbərimiz, məlumatımız var. Bunlar azmış kimi son aylarda baş verənlər xüsusilə gərginlik yaradıb. Koronavirus pandemiyası ilə bağlı sərt karantin qaydalarının tətbiq olunduğu şəraitdə işləmək, yaşamaq heç də asan deyil. Amma neyləyəsən ki, belə şəraitdə yaşayan təkcə Azərbaycan, Neftçala deyil, bütün dünya bu bəladan əziyyət çəkir, özünü təcrid şəraitində yaşayır, belə şəraitdə çalışır.

Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov məhz belə çətin bir vaxtda — bu il martın 5-də gəlmişdi Neftçalaya. Sabiq icra başçısının, müavinlərinin, bir sıra məsul işçilərin həbsindən sonra rayonda yaşanan stress, gərginlik hamıya bəlli idi. Təyinatdan cəmi bir neçə gün sonra koronavirus pandemiyası ilə əlaqədar ölkədə, o cümlədən Neftçalada ciddi karantin tədbirlərinin həyata keçirilməsi yaranmış gərginliyi qat-qat artırdı. Daha sonra Kür çayının şorlaşması nəticəsində susuzluğun ağrı-acılarını yaşamalı olduq. Aradan ayların keçməsinə baxmayaraq şirin su çatışmazlığı, Neftçala, neftçalalılar üçün bu gün də bir nömrəli problem olaraq qalır.

Məhz rayon rəhbərinin başçılığı ilə həyata keçirilən geniş maarifləndirici, qabaqlayıcı tədbirlər nəticəsində, müvafiq qurumların, fəalların qüvvəsinin səfərbərliyə alınması sayəsində koronavirus xəstəliyinin rayonumuzda geniş yayılmasının qarşısı alındı. Neftçalada sərtləşdirilmiş karantin tədbirləri tətbiq olunmadı. Belə çətin şəraitdə Kürün suyunun şorlaşması onsuz da çətin, mürəkkəb olan vəziyyəti bir az da mürəkkəbləşdirdi. Haqlı olaraq butün nəzərlər rayon icra hakimiyyətinə yönəldi. Hamı ilk yardımı, ilk köməyi məhz buradan gözləyirdi. Öz məsuliyyətini hər kəsdən daha çox dərk edən rayon rəhbərinin yubanmadan respublikanın əlaqədar təşkilatlarını, onların rəhbərlərini ayağa qaldırması neftçalalılar üçün bir əzmkarlıq nümunəsi oldu. Həmin gündən başlayaraq əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün atılan qətiyyətli addımlar göz qabağındadır. Neftçala şəhərində elə bir məhəllə yoxdur ki, orada iri həcmli su çənləri qoyulmasın. Hamısı da müntəzəm olaraq təmiz içməli su ilə doldurulur. Əhalinin sıx yaşadığı Bankə, Xıllı, Həsənabad qəsəbələri, Kür boyu ərazilərdəki kəndlər də diqqətdən kənarda qalmır. Kürün suyunun şorlaşmasının Aşağı Surra kəndinə çatmasından sonra Xol zonasında da vəziyyət xeyli dərəcədə mürəkkəbləşmişdir. Buna baxmayaraq hər şey rayon rəhbərinin nəzarəti altındadır. Bütün qüvvələr səfərbərliyə alınır ki, hər yerə içməli su vaxtlı-vaxtında çatdırılsın, adamlar su sarıdan korluq çəkməsinlər.

Belə vəziyyətdə biz də əlimizi əlimizin üstünə qoyub oturmamalıyıq. Rayon rəhbərliyinin ətrafında daha sıx birləşməliyik, kömək göstərməliyik, ona arxa, dayaq olmalıyıq. Unutmamalıyıq ki, yerində deyilən adi bir sağ ol, səmimi razılıq adamı qanadlandırır, ona yeni güc, qüvvət verir. Vəziyyəti, çəkilən zəhməti düzgün dəyərləndirərək apardıqları səmimi söhbətləri, təbliğatları ilə gərginliyi aradan qaldırmağa, görülənləri, qurulanları insanların gözlərində ucaltmağa çalışanlara min əhsən. Bu gərgin dövrdə insanların xeyirxah əməllərinə görə cəmiyyətdən xoş söz, minnətdarlıq eşitməyə daha çox ehtiyacları var. Gəlin bunları onlardan əsirgəməyək.

Amma çox təəssüf ki, mövcud vəziyyəti düzgün qiymətləndirməyərək əsassız tələblərilə süni gərginlik yaratmağa çalışanlar da var. Rayon icra hakimiyyətinin saytındakı "Neftçala Rayon İcra Hakuimiyyəti təkzib edir" sərlövhəli yazı buna əyani misaldır. Yazıdan aydın olur ki, özünü keçmiş hərbçi kimi təqdim edən Rəşid Vaqif oğlu Rəhimov Qarabağ müharibəsi əlili deyil, ümumi səbəbdən ikinci dərəcəli əlildir. O, Mirhəsən Seyidovun rayonumuza başçı kimi təyinatından cəmi 5 gün sonra, martın 10-da rayon rəhbəri tərəfindən qəbul edilmişdir. Rəşid Rəhimovun müraciətinə əsasən rayon rəhbərinin tövsiyəsi ilə Neftçala bələdiyyəsi tərəfindən ona 500 manat dəyərində taxta və digər tikinti materialları verilmişdir. Bununla yanaşı Rəşid Rəhimova bu məqsədlə 2018-2019-cu illərdə də 40 kisə sement,1000 ədəd kərpic, 800 ədəd mişar daşı, 1 maşın suvaq qumu ilə köməkliklər edilmiş, maddi yardımlar göstərilmişdir. Eyni zamanda Rəşid Rəhimov fərdi yaşayış evi tikmək üçün 2 dəfə hər biri 600 kvadratmetr olmaqla həyətyanı torpaq sahəsilə təmin olunmuş, ailə vəziyyəti nəzərə alınaraq həyat yoldaşı Gülər Bəylər qızı Rəhimova 1 iyun 2019-cu il tarixindən, qardaşı Rəşad Vaqif oğlu Rəhimov isə 27 yanvar 2020-ci il tarixdən "DOST İş Mərkəzi" MMC-də sosial işçi kimi işə götürülmüşlər. Bununla əlaqədar onlarla əmək müqavilələri də bağlanmışdır. Bütün bunlarla kifayətlənməyən Rəşid Rəhimovun dəfələrlə rayon ərazisində tikilməkdə olan Olimpiya İdman Kompleksindən müxtəlif təmir-tikinti materiallarını tələb etməsinə nə ad vermək olar? Halbuki, rayon icra hakimiyyətinin müvafiq əməkdaşları tərəfindən Rəşid Rəhimova tələbinin əsassız olduğu və rayon icra hakimiyyətinin belə bir səlahiyyətə malik olmadığı barədə dəfələrələ izahatlar verilmişdir.

Rəşid Rəhimovun ona göstərilən köməkliklərin müqabilində rayon icra hakimiyyətinə, müvafiq şəxslərə sağ ol demək, təşəkkür etmək əvəzinə "Gənc icra başçısı Prezidentin etimadını belə doğruldub? — Dəniz sahilində özünə istirahət mərkəzi tikdirir..." adlı məqaləsi ilə əsassız fikirlər söyləməsinə, ictimai fikirdə çaşqınlıq yaratmağa çalışmasına doğrudan da ad vermək olmur. Bütün bunlar barədə ona kifayət qədər ətraflı, əsaslandırılmış məlumatların verilməsinə baxmayaraq Rəşid Rəhimovun əsl həqiqəti dərk etmək istəməməsi yalnız acı təəssüf hissi doğurur.

İyulun 22-də Milli Mətbuatımızın 145 illik yubileyi və Milli Mətbuat Günü ilə əlaqədar rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovla səmimi söhbətimiz zamanı Neftçalanın inkişafı, bir sıra problemlərin həlli ilə bağlı fikirlərini dinlədikcə, ayrı-ayrı layihələrlə tanış olduqca gözlərimizin önündə rayonumuzun sabahkı yeni xoş mənzərəsi canlanırdı. Əl-ələ verərək çətinlikləri birlikdə dəf etməliyik ki, quruculuq, abadlıq işlərinə də geniş meydan açılsın. Rayon rəhbərinin ətrafında sıx birləşməliyik ki, o özündə yeni güc tapsın. Görülənlərə, olanlara kölgə salmaq, kimlərəsə şər, böhtan atmaq heç də qəhrəmanlıq deyil. Qəhrəmanlıq çətin gündə xalqın, insanların yanında olmaq, görülən işlərə dəstək vermək, kömək göstərməkdir. Necə ki, xalqımız Tovuzda baş verən erməni təxribatı zamanı bunu etdi. Yumruq kimi birləşərək özünün Prezidentinə, Ali Baş Komandanına, ordumuza sədaqətini, düşmənə nifrətini bir daha əyani şəkildə ortaya qoydu.

"GÜNDOGAR"

Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi və Milli Mətbuat Günü qeyd edildi

RAYON RƏHBƏRİ İLƏ SƏMİMİ GÖRÜŞ

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai həyatımızın digər sahələrində olduğu kimi, mətbuatın da yeniləşərək müasirləşdirilməsi istiqamətində atılan ciddi addımların Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi öz bəhrəsini vermişdir. Azərbaycan mətbuatı inkişaf edərək dünya standartları səviyyəsinə yüksəldikcə onun tarixinin öyrənilməsi, peşəkar, qabaqcıl jurnalistlərin əməyinin dəyərləndirilməsi də daim diqqət mərkəzində olmuşdur.

Prezident İlham Əliyevin Milli Mətbuatımızın 145 illik yubileyinin keçirilməsi ilə bağlı 30 iyun 2020-ci il tarixində imzaladığı sərəncamı da bu sahədə göstərilən qayğı və diqqətin parlaq təzahürüdür. Əvvəlki yubileylərdə olduğu kimi dövlətimizin başçısı bu dəfə də qabaqcıl jurnalistlərin əməyini layiqincə qiymətləndirərək onların ölkənin orden və medalları, fəxri adları, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunması barədə sərəncamlar imzaladı. Ali dövlət sənədinə uyğun olaraq respublikamızın hər yerində karantin qaydaları gözlənilməklə müxtəlif tədbirlər təşkil olundu, keçilən yollara bir daha nəzər salındı, xatirələr dinlənildi.

Rayonumuzun mətbuatının tarixi də uzaq onilliklərə gedib çıxır. Gələn il biz onun 90 illik yubileyini qeyd edəcəyik. Son illər dövlət başçısının sərəncamları ilə "Gündoğar" qəzetinin baş redaktorunun "Tərəqqi" medalı ilə təltif olunması, "Əməkdar jurnalist" fəxri adına layiq görülməsi təkcə baş redaktor Habil Əsədovun deyil, eyni zamanda rayon mətbuatına, rayonun mətbuat işçilərinin əməyinə verilən dəyərdir. "Qızıl qələm" və "Araz" Ali ədəbi media mükafatı laureatı adlarını daşıyan, ayrı-ayrı təşkilatların Fəxri fərmanlarına, diplomlarına layiq görülən Habil Əsədov bu gün də öz peşə fəaliyyətini uğurla davam etdirərək dövlət və dövlətçiliyə sədaqət nümunəsi göstərir.

Milli Mətbuatımızın 145 illik yubileyi və Milli Mətbuat Günü münasibətilə iyulun 22-də onun rayon icra hakimiyətinin başçısı hörmətli Mirhəsən Seyidov tərəfindən qəbul edilməsi təkcə "Gündoğar" qəzeti redaksiyası kollektivinin deyil, rayonun jurnalistlərinin də razılığına səbəb olmuşdur. Tarixi yubiley və əlamətdar gün münasibətilə mətbuat işçilərini ürəkdən təbrik edən rayon rəhbəri onlara yeni yaradıcılıq uğurları arzulamışdır. Səmimi görüş zamanı Neftçalada həyata keçiriləcək bir sıra layihələrə aydınlıq gətirən rayon rəhbəri eyni zamanda görülən işlərə kölgə salmağa cəhd göstərən, qarışıqlıq yaratmaq istəyənlərin olduğunu da dilə gətirmişdir. Qeyd etmişdir ki, pandemiyanın törətdiyi çətinliklərə, Kür çayı ilə bağlı yaranmış problemlərə, digər narahatlıqlara baxmayaraq Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr uğurla yerinə yetiriləcək, əhali ilə təmas getdikcə daha da möhkəmləndiriləcəkdir.

Sonda rayon rəhbəri mətbuat işçilərini bir daha təbrik edərək onlara özünün dəyərli tövsiyələrini vermişdir.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun "Gündoğar" qəzeti redaksiyasının kollektivinə bayram təbriki

Hörmətli həmvətənlər, dəyərli mətbuat işçiləri!

Sizi 22 iyul Milli Mətbuat günü münasibətilə rayon ictimaiyyəti adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Koronavirus pandemiyasi ilə mübarizənin cəmiyyətimiz üçün ən aktual və ümdə məsələ olduğu bu günlərdə ölkə başçısı cənab İlham Əliyevin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli sərəncamı Azərbaycan milli mətbuatına göstərilən mühüm dövlət qayğısının ən ümdə göstəricisidir. Sərəncam milli mətbuatımızın tarixi təkamül və inkişaf yoluna dərin ehtiram nümunəsi olmaqla yanaşı, medianın müasir ictimai həyatdakı yeri və roluna, funksiyasına verilən yüksək qiymətdir.

Milli mətbuatın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə bir qrup şəxsə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi, kütləvi informasiya vasitələri nümayəndələrinin ölkənin orden və medalları, fəxri adları, kütləvi informasiya vasitələri əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi, ölkə başçısı cənab İlham Əliyevin imzaladığı tarixi sərəncamlarla media qurumlarına, respublika və yerli əhəmiyyətli mətbuat orqanlarına, özəl və dövlət televiziya kanallarına, həmçinin informasiya agentliklərinə göstərilən maddi köməkliklər dövlətin diqqət və qayğısının bariz nümunəsidir.

Fəaliyyəti dövründə mütərəqqi ictimai ideyaların carçısı kimi çıxış edən Azərbaycan Milli Mətbuatı xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermiş, onun müstəqillik amalının aşılanmasında, milli şüurun, mədəniyyətin formalaşmasında müstəsna xidmətlər göstərmişdir.

Bu gün əminliklə deyə bilərik ki,"Əkinçi" qəzeti ilə əsası qoyulmuş milli mətbuatın tarixi təkamülü müxtəlif dövrlərdə fərqli inkişaf dinamikası ilə yaddaqalan olub. Hələ əsr yarım əvvəl elan edilmiş ümdə meyarlar - maarifçilik, müasirlik, milli məfkurə, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin qorunması, hadisələrin obyektiv işıqlandırılması kimi prinsiplər mətbuatın gələcək inkişafı üçün bir növ mayaka çevrilib.

Müstəqil Azərbaycanda mətbuatın müasir inkişaf mərhələsi, söz azadlığının təmin olunması Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərimizin təşəbbüsü ilə senzura ləğv olunmuş, azad sözə geniş meydan verilmişdir. Mətbuat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, mətbuat işçilərinin fəaliyyəti üçün lazımi şəraitin yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Mətbuat sahəsində demokratik, liberal qanunvericilik bazası yaradılmışdır ki, bunun nəticəsi olaraq ölkəmizdə çoxşaxəli mətbuat və informasiya şəbəkəsi formalaşmışdır. Bu gün yüzlərlə qəzet, jurnal, teleradio şirkəti, informasiya agentlikləri azad sürətdə fəaliyyətlərini davam etdirirlər.

Hazırda mətbuat işçilərinin qarşısında geniş imkanlar açılmışdır.Yaradılmış münbit şəraitdən və hərtərəfli imkanlardan demokratiyanın, Azərbaycan dövlətçiliyinin inkişafı naminə istifadə etmək jurnalistlərin vəzifə və peşə borcudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi ölkəmizdə həyata keçirilən genişmiqyaslı, çoxşaxəli quruculuq işlərini mətbuatın və digər kütləvi informasiya vasitələrinin iştirakı olmadan reallaşdırmaq təsəvvür edilə bilməz.

Əminəm ki, rayonumuzun ictimai-siyasi həyatında müstəsna xidməti olan "Gündoğar" qəzetinin kollektivi bundan sonra da öz istedad və bacarıqlarını yalnız Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, xalqımızın müstəqillik ideyalarının axıradək reallaşmasına və milli mənəvi dəyərlərin qorunmasına sərf edəcəkdir.

Bayramınız mübarək!

Hörmətlə,
Mirhəsən Seyidov

Şəhidin məzarı ziyarət olundu

1990-cı ilin yanvarında sovet ordusu Neftçala şəhərinə yeridiləndə burada günahsız və əliyalın sakinlərə divan tutuldu. 2 nəfər öldürüldü, 50 nəfərə yaxın insan isə həbs edildi. Neftçala bu günə qədər 200 nəfər şəhid verib ki, onlardan biri də Əfsər Səttar oğlu Gözəlovdur.

Əfsər Gözəlov 1964-cü ildə Bankə qəsəbəsində anadan olub. 90-cı illərin əvvəllərində ölkəmizin başı üzərini qara buludlar alanda Əfsər də ilk silaha sarılanların sırasında olub. Allahverdi Bağırovun batalyonunda vuruşaraq xüsusi igidliklər göstərib, düşmənin canına vəlvələ salıb. 1992-ci ildə Ağdərə ətrafında gedən qanlı döyüşlərdə ağır yaralanan Əfsər Gözəlov Bakıya gətirilsə də, həyatını xilas etmək mümkün olmayıb.

Bankə qəsəbəsində dəfn olunan şəhidin məzarı daim ziyarət yeri olub, gənclərin and yerinə çevrilib. Bu günlərdə şəhidin məzarının abadlaşdırılması, ətrafında səliqə-sahman yaradılması hamının qəlbində böyük rəğbət hissi doğurub. "COVİD 19" pandemiyası ilə əlaqədar az tərkibdə keçirilən ziyarətdə rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov və millət vəkili hörmətli Sabir Rüstəmxanlı da iştirak ediblər. İştirakçılar Əfsər Gözəlovun erməni faşistlərinə qarşı döyüşlərdə göstərdiyi igidliklərdən, qəhrəmanlıqlardan fəxrlə danışaraq ona qadir Allahdan qəni-qəni rəhmət diləyiblər.

M. ƏHMƏDOV

Mayak yolunda işlər davam edir

Mədəniyyət yoldan başlayır deyənlər heç də yanılmırlar. Hər hansı kəndə, yaşayış məntəqəsinə gedəndə ilk təəssürat doğrudan da yoldan başlayır. Normal, səliqəli yol rahatlıqdan başqa, həm də sürətdir, ictimai həyatın inkişafına, yeniləşməsinə, həmin ərraziyə gediş-gəlişin artmasına təsir göstərən mühüm amildir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında digər kommunikasiyalarla yanaşı yolların yenidən qurularaq müasirləşdirilməsinin ön plana çəkilməsi də bununla bağlıdır. Həmin dövlət proqramlarına uyğun olaraq son illər rayonumuzda da az iş görülməyib. Çoxlu sayda yaşayış məntəqələrini rayon mərkəzi ilə birləşdirən Cəngən-Şirvanlı, Neftçala-Xolqaraqaşlı yollarının və digər yolların əsaslı təmir olunaraq qaydaya salınması həmin ərazilərdə yaşayan on minlərlə insanın böyük sevincinə səbəb olmuş, onların qəlbində sonsuz minnətdarlıq duyğuları oyatmışdır. Vaxtı ilə yolsuzluqdan əziyyət çəkən, ciddi problemlər yaşayan insanlar indi mənzil başına rahat gedib-gələ bilirlər.

Amma çoxlu sayda insanların yaşadığı 9 kilometr uzunluğundakı Bankə-Mayak yolunun bərbad vəziyyətdə qalması da narahatlıq doğurmaya bilməzdi. Yenikənd, Qırmızı Şəfəq, 1 saylı Mayak, Sübh kəndlərinin sakinləri illərdən bəri idi ki, yolsuzluğun çətinliklərini, narahatlıqlarını yaşamaqda idilər. Rayon icra hakimiyyətnin başçısı hörmətli Mirhəsən Seyidovun ilk gündən yolun çəklişinə diqqət ayırması, bununla bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırması öz müsbət nəticəsini verdi. Respublika Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Yenikənd-Qırmızı Şəfəq-1 saylı Mayak-Sübh kənd yolunun əsaslı təmirinə başlanılması bu ərazidə yaşayan çoxlu sayda insanların böyük razılığına səbəb olmuşdur.

Təmir işlərini agentliyin rayonumuzdakı "50 №-li Yol İstismarı" MMC-nin kollektivi həyata keçirdiyindən inşaatçılarla elə iş üstündə görüşməyi qərara aldıq. Havanın isti olmasına baxmayaraq onlar fəaliyyətlərini dayandırmamışdılar. Hər kəs üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışdığından işlər sürətlə davam edirdi. Birgə səy nəticəsində artıq yolun üç kilometrdən çox hissəsinə "qara örtük" döşənmişdir. MMC-nin direktoru Ruslan Babayev dedi:

— Bankə qəsəbəsindən Yenikənd-Qırmızı Şəfəq-1 saylı Mayak-Sübh kəndləri istiqamətində uzanan yol uzun illərdən bəri istismar olunduğuna baxmayaraq indiyə kimi heç vaxt əsaslı təmir edilməyib. Yolun hərəkət hissəsinin deformasiyaya uğrayaraq burada çoxlu sayda qabarmaların, çalaların əmələ gəlməsi də bununla bağlıdır. Əsaslı təmir işləri də məhz bu zərurətdən yaranıb. Hazırda burada işlər uğurla davam edir. Yolun çəkilişinin rayon rəhbərliyinin daim diqqətində olması bizim də məsuliyyətmizi artırır. Tabe olduğumuz təşkilat — Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bizi lazım olan materiallarla təmin etdiyindən inşaatçılarımız dayanmadan çalışırlar. Kifayət qədər texnikamız və işçi heyətimiz var. Hamısı da yol çəklişində lazımı təcrübəsi olan insanlardır. İşimizi irəli aparan da iş icraçısı Aləddin Abbasov, sürücü Etibar Rzayev, avtoqreyderçi Mais Əmirov, fəhlələr İlham İsmayılov, Coşqun Məmmədov və digər belə qabaqcılların birgə səyi, əlbir çalışmalarıdır. Yol boyundakı insanların işimizlə yaxından maraqlanması, razılıqlarını bildirməsi bizim üçün xüsusilə sevinciridir. Yolun vaxtında təhvil verilməsi onlar üçün doğrudan da əsl hədiyyə olacaqdır. Ona görə səylərimizi durmadan artırırıq ki, rayon rəhbərliyinin də, işimizin başa çatmasını intizarla, səbirsizliklə gözləyən kənd sakinlərinin də etimadına layiq olaq.

Yenikənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Abasqulu İsgəndərli ilə də elə burada, iş üstündə görüşdük. Onunla birlikdə olan kənd sakinlərinin çöhrəsindən sevinc yağırdı. Nümayəndə Abasqulu İsgəndərli də, kənd sakinləri də göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə özlərinin dərin minnətdarlıqlarını bildirdilər. Bir daha inandıq, yəqin etdik ki, yolun istifadəyə verildiyi gün ərazidə əsl bayrama çevriləcəkdir.

H. ƏSƏDOV

Cari ilin yanvar-may aylarında rayonun iqtisadiyyatında çalışan işçilərin sayı və onların əmək haqqı

2020-ci ilin yanvar-may aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 29,0 faiz artaraq 437,6 manat təşkil etmişdir.

Cari ilin yanvar-may aylarında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı neft sektorunda 1312,1 manat, qeyri-neft sektorunda 407,1 manat, dövlət sektorunda 426,5 manat, qeyri-dövlət sektorunda isə 455,5 manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı neft sektorunda 0,2 faiz, qeyri-neft sektorunda 37,5 faiz, dövlət sektorunda 39,1 faiz, qeyri-dövlət sektorunda isə 17,6 faiz artmışdır. Digər fəaliyyət növləri ilə müqayisədə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində və elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.

01 iyun 2020-ci il tarixə rayonun müəssisə və təşkilatlarında faktiki işləmiş muzdlu işçilərin sayı 8444 nəfər olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrünə nisbətən 307 nəfər və ya 3,5 faiz azdır. Muzdlu işçilərin 61,9 faizi dövlət, 38,1 faizi isə qeyri-dövlət sektorunda çalışır. Əvvəlki ilin müvafiq dövrünə nisbətən muzdlu işçilərin sayı dövlət sektorunda 0,1 faiz, qeyri-dövlət sektorunda isə 8,5 faiz azalmışdır.

Şahin MƏNƏFOV,
rayon statistika idarəsinin rəisi

Dərs ili başa çatıb: PANDEMİYANIN ÇƏTİNLİKLƏRİNƏ BAXMAYARAQ...

Vüqar İsrəfil oğlu Dadaşov 1984-cü il mart ayının 16-da Neftçala şəhərində anadan olmuşdur. Neftçala şəhər 1 saylı tam orta məktəbində təhsilini başa vurduqdan sonra o, Bakı Dövlət Univerisitetinin tarix fakültəsini bitirmişdir.

2006-cı ildən 2016-cı ilə kimi Neftçala şəhərindəki humanitar təmayüllü "Muğan" liseyində tarix müəllimi işləyən Vüqar Dadaşov 2016-cı ildən N.Gəncəvi adına şəhər 3 saylı tam orta məktəbinə direktor təyin olunmuşdur. Bu müddətdə o, eyni zamanda Mədət Humanitar Təşkilatı İctimai Birliyində baş məşqçi kimi fəaliyyət göstərərək üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlmiş, gənc nəslin təlim-tərbiyəsinə xidmət edən ayrı-ayrı pedaqoji layihələrin həyata keçirilməsində yaxşı iş nümunələri göstərmişdir.

V. Dadaşov 2013-2014-cü tədris ilinin yekunlarına görə Prezident İlham Əliyevin sərəncamına əsasən "İlin ən yaxşı müəllimi" adına layiq görülmüş, 5000 manat pul mükafatı ilə mükafatlandırılmışdır. 2017-ci ildə isə o, respublika Həmkarlar İttifaqı Konfederasiyası tərəfindən "İlin peşəkar gənci" döş nişanı ilə təltif olunmuşdur.

Vüqar İsrəfil oğlu Dadaşov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun 15 iyul 2020-ci il tarixli sərəncamı ilə Neftçala Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Aşağıda onun cari təhsil ilinin yekunları ilə bağlı "Pandemiyanın çətinliklərinə baxmayaraq..." adlı məqaləsini təqdim edirik.

2019-2020-ci tədris ilində rayon təhsil şöbəsi, rayonun təhsil müəssisələrinin rəhbərləri və pedaqoji işçiləri məktəblərdə təlim-tərbiyə işinin səviyyəsinin daha da yüksəldilməsi, təhsilin maddi-texniki tədris bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişlər. İstər tədrisdə, istərsə tərbiyədə və digər sahələrdə bir sıra müsbət nəticələrin əldə olunması, uğurların genişlənməsi də bununla bağlıdır.

Cari dərs ilində rayonun 50 ümumtəhsil məktəbində 10891 nəfər şagird təhsil alıb. Məktəbəhazırlığa 41 qrupda 745 şagird məşğələlərə cəlb olunub. 773 şagird ümumi orta təhsil haqqında attestat, 590 şagird isə tam orta təhsil haqqında attestat almışdır. 9-cu sinif şagirdlərindən 10 nəfəri fərqlənmə attestatına layiq görülmüşdür. 11-ci sinif üzrə isə 1 məzun - Nərmin Şahin qızı Rəhimova fərqlənmə attestatına layiq görülmüşdür. Qaçaqkənd kənd tam orta məktəbinin məzunu Əlif Namiq oğlu Məmmədovun yüksək təhsil göstəriciləri nəzərə alınaraq Qızıl medala namizədliyi Təhsil Nazirliyinə təqdim edilmişdir.

IX siniflərin buraxılış imtahanlarının nəticələrinə əsasən rayonun ümumi orta balı 110 bal olmuşdur. Bu, keçən tədris ili ilə müqayisədə 13 bal artım göstəricisidir. XI siniflərin buraxılış nəticələrində isə 7 bal geriləmə olmuşdur. Məktəblər üzrə müqayisə apardıqda IX siniflərin

Vüqar DADAŞOV,
Neftçala Rayon Təhsil Şöbəsinin müdiri

buraxılış imtahanlarının göstəricilərinə əsasən Pirəbbə, Qazaxbərəsi, Kürkənd kənd ümumi orta, şəhər 4 saylı tam orta məktəbləri və "Muğan" liseyi ilk beşlikdə qərarlaşmışlar. XI siniflərin buraxılış imtahanlarının göstəricilərinə görə isə Cəngən, Ərəbqardaşbəyli, Qaçaqkənd, Mürsəqulu kənd tam orta məktəbləri və şəhər 4 saylı tam orta məktəbi ilk beşlikdə qərarlaşmışlar. IX siniflər üzrə ən yüksək balı şəhər 4 saylı tam orta məktəbinin şagirdi Sadiq Abdulrəhmanlı (290 bal), XI siniflər üzrə isə Qaçaqkənd kənd tam orta məktəbinin şagirdi Əlif Məmmədov (261 bal) toplamışlar.

Tədris ili ərzində ən nüfuzlu müsabiqələrdən biri də respublika fənn olimpiadalarıdır. Bu il rayonumuzu bu olimpiadaların final turunda 8 şagirdimiz təmsil etmiş, onlardan 4 nəfəri qalib adına layiq görülmüşdür. Çətin bilik yarışlarında N.Bəşirov adına Qaçaqkənd kənd tam orta məktəbinin şagirdi Əlif Məmmədov Azərbaycan dili və ədəbiyyat fənni üzrə II yeri, R. Gözəlov adına XIllı qəsəbə 1 saylı tam orta məktəbinin şagirdi Xəyal Sadıqov fizika fənni üzrə II yeri, E.Həbibov adına Neftçala şəhər 4 saylı tam orta məktəbinin şagirdi Sadiq Abdulrəhmanlı fizika fənni üzrə III yeri, S.İmanov adına Neftçala şəhər 1 saylı tam orta məktəbinin şagirdi Elşən İsgəndərli fizika fənni üzrə III yeri tutmuşlar. Bu, onların aylarla çəkdikləri gərgin zəhmətlərinin bəhrəsidir.

Azərbaycan Respublikası təhsil nazirinin 29.11.2019-cu il tarixli F-703 nömrəli əmrinə əsasən VIII-XI sinif şagirdlərinin iştirakı ilə "Ədəbiyyat biliciləri" müsabiqəsi də bizim üçün sevindiricidir. Qədimkənd kənd tam orta məktəbinin X sinif şagirdi Ağabacı Tale qızı Bağırova rayon turunda iştirak edərək I, həmin məktəbin X sinif şagirdi Qulu İsmayıl oğlu Babayev və Astanlı kənd tam orta məktəbinin XI sinif şagirdi Əsmər Salman qızı Məmmədova II , şəhər 3 saylı tam orta məktəbin VIII sinif şagirdi Gülnarə Samir qızı Əliyeva və humanitar təmayüllü "Muğan" liseyinin IX sinif şagirdi Zinyət Səməd qızı Musayeva isə III yerə layiq görülmüşlər.

Fevral ayının sonlarından etibarən ölkədə yaranmış epidemioloji vəziyyətlə əlaqədar olaraq koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması məqsədilə rayonda fəaliyyət göstərən bütün ümumtəhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər həyata keçirilmiş, geniş profilaktik söhbətlər aparılmışdır. Koronavirusla bağlı şagirdlər, müəllimlər, texniki işçilər tam məlumatlandırılmış, onlar virusla mübarizə üçün hərtərəfli təlimatlandırılmışlar.

Mart ayının 3-dən etibarən koronavirus infeksiyasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarı ilə ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesi müvəqqəti olaraq dayandırılmışdır. Şagirdlərin təhsildən geri qalması üçün Təhsil Nazirliyi tərəfindən lazımi addımlar atılmış, teledərs və virtual məktəb layihəsinə start verilmişdir. Aprel ayından etibarən rayonun müəllim və şagirdləri "Virtual məktəb" layihəsi çərçivəsində onlayn dərslərə cəlb edilmişdir. Bu layihədə şəhər 1, 2, 3, 4 saylı məktəblərinin, "Muğan" liseyinin, Aşağı Surra, Xolqaraqaşlı, Xıllı qəsəbə 1 saylı, Mirqurbanlı, Həsənabad, Mayak 1 saylı, Qırmızıkənd və Qədimkənd kənd tam orta məktəblərinin müəllim və şagirdləri daha aktiv olmuşlar. Qırmızıkənd kənd tam orta məktəbinin 8-ci sinif şagirdi Fidan İxtiyar qızı Zeynallı 2 həftə ardıcıl olaraq virtual məktəb platformasında virtual əlaçı müsabiqəsinin qalibi olmuşdur.

23 və 24 aprel tarixlərində Neftçala Rayon Gənclər və İdman İdarəsinin təşəbbüsü, Neftçala Rayon Uşaq-Gənclər İdman - Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə onlayn şahmat turnirinin keçirilməsi də yaddaqalan olmuşdur. Turnirdə I yeri 4-cü sinif şagirdi Hüseyn Nurlan oğlu Xəlilli, II yeri 6-cı sinif şagirdi Ağarza Elmar oğlu Nəzərov, III yeri 8-ci sinif şagirdi Alim Bəxtiyar oğlu Muradov qazanmışdır. Daha sonra mayın 5-də ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin 19 fevral 2020-ci il tarixli F-115 nömrəli əmrinə əsasən mövcud vəziyyət nəzərə alınaraq onlayn qaydada bu müsabiqənin rayon turu keçirilmişdir. Q.Nuraliyev adına Xolqaraqaşlı kənd tam orta məktəbinin IX sinif şagirdi Çapay Namiq oğlu Əsgərov "Heydər Əliyev xarizmatik liderdir" mövzusunda hazırladığı təqdimatla müsabiqənin rayon turunun qalibi olmuşdur. Bundan başqa şagirdlərimiz Neftçala Rayon İcra Hakimiyyətinin, Neftçala Rayon Gənclər və İdman İdarəsinin təşkil etdiyi müxtəlif onlayn müsabiqələrdə də fəal iştirak edərək uğurlu nəticələrə imza atmışlar.

Hazırda yay tətili olmasına baxmayaraq ümumtəhsil məktəblərimiz növbəti tədris ilinə hazırlaşır. 2020-2021-ci dərs ilində rayon ərazisində I sinifdə və məktəbəhazırlıq qruplarında təhsil alacaq uşaqların siyahısı hazırlanmış və 1015 nəfər şagirdin I sinfə, 52 qrupda 841 nəfər uşağın isə məktəbəhazırlıq qruplarına cəlb olunması proqnozlaşdırılır. Yeni tədris ilində məktəblərin hansı şəraitdə və hansı formada tədrisə başlayacağı sözsüz ki, ölkəmizdəki sanitar-epidemioloji vəziyyətdən asılı olacaqdır. Amma real məktəb şəraitində tədrisə başlamaq hər birimizin arzusudur. Vəziyyətdən asılı olmayaraq rayonun təhsil işçiləri şagirdlərimizdə bilik və bacarıqlar formalaşdırmaq üçün hər bir situasiyaya hazır olmalıdırlar və bu istiqamətdə işlər davam etdirilir.

Tədris ili ərzində Heydər Əliyev Fondunun dəstəyilə "Yeniləşən Azərbaycana Yeni Məktəb" layihəsi əsasında Rafiq Gözəlov adına Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin əsaslı təmir edilərək burada şagird və müəllimlərin fəaliyyəti üçün hər bir şəraitin yaradılması bizim üçün böyük sevincdir. Prezident İlham Əliyevin sərəncamı ilə Yenikənd ibtidai məktəbi üçün yeni modul tipli məktəb binasının quraşdırılması isə hazırda davam edir. Bununla yanaşı Qədimkənd kənd tam orta, Neftçala şəhər 1 və 2 saylı tam orta məktəblərində cari təmir işləri aparılmışdır. Göstərdikləri qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya dərin təşəkkürümüzü və səmimi minnətdarlığımızı bildiririk.

Qarşıda məzunlarımızı növbəti çətin sınaq - qəbul imtahanları gözləyir. İnanırıq ki, onlar bu imtahanlarda yüksək bilik nümayiş etdirməklə rayonumuza başucalığı gətirəcəklər.

GÜNDOĞAR

№ 15-16 (6742) 10 avqust 2020-ci il

SON SƏHİFƏ

Veteran yazarlarımız: Qurbanxan Pirəliyev — 80

ƏCZAÇI-HƏKİM, YAZIÇI-PUBLİSİST

İndiyə qədər "Gündoğar" qəzetinin çox əməkdaşları, daimi yazarları olub. Onların əksəriyyəti müəyyən müddət qəzetdə çalışdıqdan, redaksiya ilə əlaqə saxladıqdan sonra başqa sahələrə keçib, daha redaksiya ilə əlaqə saxlamayıb. Elə əməkdaşlarımız, daimi yazarlarımız da var ki, 1973-cü ildə rayon qəzeti yenidən təşkil olunduğu gündən indiyə qədər buradan ayrılmayıb, xoş günlərimizdə də, dar vaxtlarımıza da həmişə bizimlə bir sırada olublar. Qəzetin belə sadiq, yorulmaz daimi yazarlarından biri də bu günlərdə anadan olmasının 80 illik yubileyini qeyd etdiyimiz əczaçı-həkim, yazıçı-publisist Qurbanxan Pirəliyevdir.

Qurbanxan Həsən oğlu Pirəliyev keşməkeşlərlə dolu olan ağır, zəngin bir həyat yolu keçib. O, 1940-cı ildə rayonumuzun Xolqaraqaşlı kəndində anadan olub. Bir yaşında ikən atası Həsən kişi cəbhəyə yollanıb, Krımın Kerç şəhəri uğrunda gərgin döyüşlərdə iştirak edib, ağır yaralanaraq huşsuz halda almanlara əsir düşüb. Müharibə başa çatdıqdan sonra isə almanlara əsir düşdüyünə görə Sibirə sürgünə göndərilib, oradakı daş kömür karxanalarında ağır məcburi əməyə cəlb olunub. Əməksevərliyi, çevikliyi sayəsində sürgün yerində də fərqlənib, yoldaşları, nəzarətçilər arasında özünə hörmət, nüfuz qazanıb. Nəhayət 40-cı illərin axırlarında doğma kəndlərinə qayıdıb, həyat yoldaşını və balaca Qurbanxanı da özü ilə götürərək birlikdə sürgün yerinə, Kemerovo vilayətinə aparıb. Kemerovoda keçirdikləri ağır həyat şəraitləri də balaca Qurbanxanın yaddaşına, hafizəsinə çox möhkəm həkk olunub, ona çox şeyləri öyrədib, onu çətinliklərə, məhrumiyyətlərə alışdırıb. Buna görə yaşa dolduqdan sonra hara getsə, hansı işin qulpundan yapışsa heç vaxt aciz qalmayıb, fəallığı, çevikliyi, təşəbbüskarlığı ilə həmişə sayılıb-seçilib, ətrafındakılara nümunə göstərilib.

Qurbanxanda kiçik yaşlarından tibb elminə, həkimliyə marağı, meyli xalq təbabəti ilə müntəzəm məşğul olan, onun inceliklərini yaxşı bilən anası Meyxanım xanım aşılayıb. O, həkimin, dava-dərmanın çatışmadığı ağır müharibə illərində, müharibədən sonrakı qıtlıq dövründə anasının yaşadıqları kəndin çölündən, çəmənindən bir-bir seçib topladığı müxtəlif dərman bitkilərindən necə təsirli məlhəmlər, dəmləmələr hazırlamasına fikir verdikcə hiss etmədən həkimliyə, əczaçılığa marağı artıb. Buna görə orta



təhsilini başa vurduqdan sonra Bakı Tibb Texnikumuna qəbul olunub. Oranı əla qiymətlərlə başa vurduqdan sonra isə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini də bitirib. Kəndlərində ilk dəfə aptek açaraq əczaçı işləyib, tibb institutunu bitirdikdən sonra isə orada açılan ilk xəstəxananın ilk baş həkimi olub. Beləliklə, o, əmək fəaliyyətinin lap əvvəlindən xeyli ilklərə imza atıb. Neftçala Salyandan ayrılıb müstəqil rayon kimi təşkil olunduqdan sonra isə bir müddət rayon mərkəzi xəstəxanasında baş həkimin müavini vəzifəsində çalışıb, daha sonra Xıllı qəsəbə xəstəxanasının baş həkimi vəzifəsinə təyin olunub.

Qurbanxan Pirəliyevin anadan olub böyüdüyü respublikanın ən böyük yasaqlığı sayılan Qızılağac qoruğunun yaxınlığında yerləşən Xol zonası özünün zəngin flora və faunası ilə kənar yerlərdən gələn qonaqların, ov həvəskarlarının diqqətini həmişə cəlb edib, bura çox tanınmış, məşhur adamlar gəlib gedib. Atası Həsən kişi qonaqcanlı olduğu üçün Qurbanxangilin evi, ailəsi də daim qonaq-qaralı olub, bu yerlərə ova gələn Azərbaycanın, keçmiş SSRİ-nin çox tanınmış, məşhur dövlət xadimləri, elm, sənət adamları — Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin və Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifələrində çalışmış Məmməd İsgəndərov, SSRİ Elmlər Akademiyasının akademiki, Lenin mükafatı və SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, tibb xidməti general polkovniki, SSRİ Tibb Elmlər Akademiyası A.Y. Vişnevski adına Cərrahlıq İnstitutunun direktoru, Sovet Ordusunun baş cərrahı, dünyada ilk dəfə yerli anesteziya ilə ürəkdə mitral daralmanı cərrahi üsulla müalicə etmiş A.A. Vişnevski, SSRİ-nin baş cərrahı, Sosialist Əməyi Qəhrəmanı akademik S.Struçkov, Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı Mürsəl Qarayev, məşhur xalçaçı rəssam, professor Kamil Əliyev və bir çox başqaları günlərlə bu evdə qonaq qalıb, ova gedəndə, ovdan qayıdanda gənc Qurbanxan onlara bələdçilik edib, xidmətlərində dayanıb. Bütün bunlar Qurbanxan həkimin kiçik yaşlarından savadına, biliyinə, ümumi dünyagörüşünə də böyük təsir göstərib, onda ədəbiyyata, mədəniyyətə, bədii-publisistik yaradıcılığa dərin maraq, meyl yaradıb.

1973-ci ildə qəzetimiz ilk dəfə çap olunduğu gündən Qurbanxan Pirəliyev də bizimlə əməkdaşlıq edib. O, əvvəllər daha çox ixtisası ilə bağlı tibbi mövzuda söhbətlər, müxtəlif xəstəliklərin müalicəsi və profilaktikası barədə həkim məsləhətləri yazırdı. Vaxt keçdikcə başqa mövzulara da həvəsi artdı, maraqlı məqalələr, korrespondesiyalar, zarisovkalar, oçerklər də yazmağa başladı. Azərbaycan Jurnalistlər Birliyinin üzvü oldu, Həsən bəy Zərdabi adına diploma, "Araz" ali-ədəbi media mükafatına, "Qızıl qələm" mükafatına layiq görüldü. Bunlar onun mətbuat sahəsindəki yorulmaz xidmətlərinə verilən layiqli qiymətdir

Qurbanxan Pirəliyev publisistika ilə yanaşı bədii yaradıcılıqla da məşğul olur, maraqlı elmi və bədii əsərlər də qələmə alır. Onun indiyə qədər irili-xırdalı 7 kitabı işıq üzü görüb. Kitablarının hamısı da oxucular tərəfindən maraqla qarşılanıb.

Qurbanxan həkim ömrünün bu ahıl, müdrik çağında da qələmini yerə qoymur, yazıb-yaratmaqda, bizimlə əlaqə saxlamaqda davam edir. Ömrünüz uzun, qələminiz daim iti olsun, əziz həmkarımız, yazıb-yaratmaqdan heç vaxt yorulmayasınız.

"GÜNDOĞAR"

Əziz və hörmətli neftçalalılar,bir daha deyirik:

Maska taxın, məsafə saxlayın, digər karantin qaydalarını gözləyin!

Neçə vaxtdır dünya koronavirus pandemiyası ilə üz-üzədir. On milyonlarla insan bu virusa yoluxub, yüz minlərlə insan koronavirusun ağrı-acılarını yaşayır. Ölənlərin sayı artıq yeddi yüz minə yaxınlaşmaqdadır.

Azərbaycan dünyanın bir parçısı olduğundan pandemiya buradan da yan ötə bilməzdi. Ötmədi də. Amma ölkəmizdə həyata keçirilən qətiyyətli tədbirlər xəstəliyin daha sürətlə yayılmasının qarşısını aldı, xalqımız bu ağır bəladan ən az itkilərlə çıxır. Buna baxmayaraq xəstəlik yenə yayılmaqda davam edir. Ölüm halları yenə var. Son vaxtlar sağalanların sayının yoluxanları üstələməsi aylarla çəkilən gərgin zəhmətin, dövlətimizin gördüyü ardıcıl tədbirlərin nəticəsi olsa da, bundan arxayınlaşmaq olmaz. Hər kəs qoyulmuş karantin tədbirlərinə yenə ciddi şəkildə əməl etməli, özünütəcrid şəraitində yaşamalıdır.

Əziz neftçalalılar, bir daha xatırladırıq: Xəstəlik hələ ötməyib. Yenə fəsadlar törətməkdə, can almaqdadır. Ona görə həkimlərin, mütəxəssislərin, rayon rəhbərliyinin çağırışlarına siz də laqeyd qalmayın, maska taxın, məsafə saxlayın, qoyulmuş qaydalara, tələblərə əməl edin!

Yeni era başlanır?

Artıq neçə aydan bəridir ki, dünya narahat bir dövrə qədəm qoyub. Bir çoxları bunu üçüncü dünya müharibəsi ilə müqayisə edir. Əslində belə deyil. Müharibə görünən tərəflər arasında olur. Amma indi bir tərəfdə bəşəriyyət, digər tərəfdə isə görünməz düşmən — pandemiya, koronavirus dayanır. Koronavirus səssiz-küysüz, topsuz-tüfəngsiz düşməndir. Dünyanın ümumi ahəngini, düzənini dəyişən düşmən. İstər-istəməz insanlar arasında yeni münasibətlər formalaşır. Yerli-yersiz bir-biri ilə görüşəndə qadın kimi ağız-ağıza öpüşən oğlanlar indi daha öpüşmürlər. İnsanlar bir-birinin evinə əvvəlki kimi qonaq gedib-gəlmirlər. Şadlıq sarayları, məsçidlər, məktəblər bomboş qalıb. Hər il bu vaxt çoxlu sayda qonaq qəbul edən Neftçalya da gəlib-gedən azdır. Hamı məsafə saxlayır, ə-lə görüşməkdən çəkinir.

Zaman-zaman qəzetimizdə toy və yas mərasimlərində israfçılıqdan, nümayişkaranə dəbdəbədən söhbət açmışıq. İndi ümumiyyətlə yas və toy mərasimləri qadağan olunub. Kiminsə ölüm xəbəri adi bir hadisə kimi qarşılanır. İsrafçılıqdan, dəbdəbədən isə söhbət belə gedə bilməz. Bu nə qədər çəkəcək, nə vaxt bitəcək, hələlik heç kim bir söz deyə bilmir.

Dəfələrlə deyilməsinə, izah olunmasına baxmayaraq bizdə maskasız gəzən adamlar hələ də çoxdur. Amma maraqlıdır ki, bizdən fərqli olaraq bütün yapon xalqı başdan-başa maska taxır, məsafə saxlayır.

İnsanlar arasında soyuq bir külək əsir, koronavirus küləyi. Bəlkə dünya yeni bir eraya qədəm qoyubdur, koronavirus erasına?! Hamımız səbirsizliklə əvvəlki sərbəst, müstəqil, azad, qadağasız günlərin qayıtmasını gözləyirik. Tutaq ki, əvvəlki qadağalarsız həyat tərzinə qayıtdıq, onda necə olacaq? Yenə dəbdəbəli, təmtəraqlı, "qonşu bağrı çartladan" toy və yas mərasimləri baş alıb gedəcəkmi? Axı uzun illərin adətindən, şakərindən əl çəkmək o qədər də asan deyil. Bəlkə əvvəlki dəbdəbələrdən, təmtəraqlardan da bir az qabağa getdik, qadağalar dövrünün də acığını, hikkəsini çıxmağa başladıq.

Koronavirus "rejiminin" xeyirli tərəfləri də çoxdur. Görəsən onlar bizə sərf edəcəkmi? Yoxsa yenə də tamahımızın, eqoizmimizin quluna çevriləcəyik? Bəla bəladır, amma hər bəla gələndə özünün sınaqları, dərsləri ilə gəlir. Görəsən biz koronavirus dərsindən nə öyrənib, nə nəticə çıxaracağıq?! Nəticə çıxarsaq nə yaxşı. Xeyrimiz çox olacaq.

Qoy Allah bizi tamah və eqoizim virusunun ikinci dalğasından qorusun.

Z. MƏMMƏDOV

Redaksiyamızın qonaqları

SABAHA BOYLANAN ARZU

Dünyanın bu qayğılı, narahat günlərində işıqlı duyğular, xoş əhvali-ruhiyyəli məqamlar da olur. Bir neçə gün bundan qabaq bunun bir daha canlı şahidi olduq. Gözəl, sakit bir yay səhəri idi. Redaksiyamızın qapısı döyüldü. Üzünə tibbi maska taxmış iki nəfər, gənc bir ana və çəlimsiz qızcığaz içəri daxil oldular. Öyrəndik ki, bu qızın adı Tahirədir. Rafiq İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbinin şagirdi Tahirə Məmmədova. Yaşının az olmasına baxmayaraq Tahirəni rayonda və sosial şəbəkələrdə çox adam tanıyır. Tahirə dərs əlaçısı olmaqla yanaşı həm də nümunəvi şagirddir. Bu qızın eyni zamanda gözəl şeir söyləmək istedadı var. O nəinki çoxlu şeir, bir çox tanınmış şairlərin poemalarını da əzbərdən bilir. Belə fenomen yaddaşa malik olan Tahirə ümumrayon tədbirlərində iştirak edir, əlamətdar günlərdə çıxışlar edir, şəhidlərimizin, Milli Qəhrəmanlarımızın doğum və anım günlərində nümunəvi, parlaq istedadı ilə həmişə diqqət mərkəzində olur. Tahirənin anası bizə qızının aldığı bir qovluq diplomu, Fəxri fərmanı, tərifnamə və digər sənədləri təqdim etdi. Bütün bunlar ona oxuduğu məktəb, rayon təhsil şöbəsi, rayon rəhbərliyi tərəfindən verilmişdir. Tahirə eyni zamanda beynəlxalq yarışmalara qoşulmuşdur. Bir diplom da ona Pakistandan göndərilmişdir.

Tahirənin böyüyəndə oxuyub hansı sənətin yiyəsi olmaq istədiyini soruşanda tərəddüd etmədən dedi: "Uşaq həkimi". Səbəbini soruşanda heyrətləndik. Tam ciddi şəkildə əlavə etdi:

— Bu gün yer üzündə müxtəlif xəstəliklər səbəbindən nə qədər uşaq dünyasını dəyişir və yaxud əziyyət çəkir. Koronavirus bəlası ölümü daha da sürətləndirib və yəqin ki, belə xəstəliklər həmişə olacaq. Ona görə böyüyəndə həkim olmaq istəyirəm ki, çox sevdiyim uşaqların sağlamlığı keşiyində dayana bilim, onları əziyyət çəkməyə, ölməyə qoymayım.

Allah səni arzuna qovuşdursun, Tahirə bala! Ola bilsin böyüyəndə tanınmış diktor, bədii qiraət ustası da ola bilərdin. Amma seçim sənindir və çox da xeyirxah seçimdir. Xüsusilə dünyanın indiki narahat, qayğılı dönəmində.

Sənə uğurlar arzulayırıq.

Ruqiyə ƏSƏDOVA

Yol hərəkətinin təhlükəsizliyi: VELİSOPEDÇİLƏR, MƏSULİYYƏTİNİZİ SİZ DƏ DƏRK EDİN

Respublikamızda yol hərəkətinin təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilmiş profilaktik tədbirlər nəticəsində 2020-ci ilin 6 ayı ərzində yol-nəqliyyat hadisələrinin, onların nəticəsində həlak olanların və xəsarət alanların sayında azalma qeydə alınsa da, son vaxtlar velisopedçilərin iştirakı ilə baş vermiş qəzaların çoxluğu ciddi narahatlıq doğurur.

Təkcə cari ilin 6 ayında velisopedçilərin iştirakı ilə baş vermiş 21 yol-nəqliyyat hadisəsində 8 nəfər həlak olmuş, 21 nəfər isə xəsarət almışdır. Təhlillər göstərir ki, qeyd olunan hadisələrin artımına, nəticələrinin isə ağırlaşmasına səbəb bir çox velisopedçinin qanunla müəyyən edilmiş təhlükəsizlik qaydalarına əməl etmədən yol hərəkəti qaydalarını davamlı olaraq pozmaları, o cümlədən velisopedi yolun əks istiqamətində, hərəkət hissəsinin ortasında, xüsusən sutkanın qaranlıq vaxtlarında işıqlandırıcı vasitələrdən istifadə etmədən idarə etmələri olmuşdur.

Yuxarıda qeyd olunanlar respublika Daxili İşlər Nazirliyinin "Avtomobil yollarında velisoped idarə edən şəxslərin yol hərəkəti qaydalarına riayət etmələrinə nəzarətin gücləndirilməsinə dair" məktubundandır. Məktubdan aydın olur ki, yollarda velisopedçilərin sayı artdıqca onların qaydalara riayət etməmələri çox ciddi nəticələrə gətirib çıxarır. Elə buna görə də baş verənləri nəzərə alaraq, velisopedlərin idarə olunmasında hərəkətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən tədbirlərin effektliyinin daha da artırılması məqsədilə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq velisopedi idarə edən şəxslər tərəfindən avtomobil yollarında texniki baxımdan saz və lazımi təchizatlı velisopeddən istifadə edilməsi, habelə onların xüsusi zolaqlar ilə, bunlar olmadıqda isə yolun, küçənin hərəkət hissəsinin kənarı və ya yol çiyinləri ilə idarə olunması, eləcə də idarə etməyə mane olan yük və ya sərnişin daşınılmamasının ciddi nəzarətdə saxlanılması, avtomobil yollarında velisopedi təhlükəsizlik dəbilqələrindən istifadə etmədən, eləcə də yolun əks istiqamətində, hərəkət hissəsinin ortasında və digər yol hərəkəti qaydalarını pozmaqla idarə edən şəxslər barəsində qanunla müəyyən edilmiş qaydada inzibati tənbeh tədbirlərinin görülməsi qarşımıza çox ciddi tələblər kimi qoyulmuşdur.

Bununla yanaşı gələcəkdə velisopedçilərin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün belə qəzaların mütəmadi təhlillərinin aparılaraq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin, bu sahədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə etməklə əhali arasında geniş maarifləndirmə işlərinin aparılmasının əhəmiyyəti də xüsusi vurğulanmışdır.

Qarşımıza qoyulan vəzifələrin məsuliyyətini dərindən dərk edərək son vaxtlar biz də bu istiqamətdə fəaliyyətimizi xeyli dərəcədə genişləndirmişik. Tərtib etdiyimiz tədbirlər planında görəcəyimiz işlər hərtərəfli müəyyənləşdirilmişdir. Keçirdiyimiz reydlər nəticəsində 12 velisopedçi barədə qanunvericiliyə uyğun olaraq tədbirlər görülmüşdür. Həmin şəxslər barədə cərimə protokolları tərtib edilərək onlar məsuliyyətə cəlb olunmuşlar. Eyni zamanda reydlər zamanı avtomobil yollarında hərəkət edərək qəza şəraiti yaradan velisopedçilər də saxlanılmışlar. Onlarla apardığımız profilaktiki söhbətlər zamanı izah edilmişdir ki, belə hərəkətlərilə velisopedçilər təkcə özləri üçün yox, həm də hərəkət iştirakçıları üçün ciddi təhlükə yaradırlar.

YPX inspektoru Rüfət Salayev Heydər Əliyev prospektində velisopedçi ilə profilaktiki söhbət aparır

Məsələnin aktuallığını nəzərə alaraq rayon ərazisində reydlərimizi bundan sonra da müntəzəm olaraq davam etdirəcəyik. Çalışacağıq ki, əhali arasında geniş maarifləndirici tədbirlər həyata keçirməklə velisoped sürücülərinə yol-hərəkəti qaydalarını, bu qaydaların pozulmasının törədə biləcəyi ciddi nəticələri hərtərəfli izah edib aydınlaşdıraq. Velisopedçilər də öz məsuliyyətlərini kifayət qədər dərindən dərk edib anlasınlar.

Seymur ƏSƏDOV,
Neftçala Rayon Polis Şöbəsi
Dövlət yol polisi bölməsinin rəisi, polis mayoru

Müxalifətə sözümüz

Körpüləri yandırmayın!

Dünyanın bütün ölkələrində müxalifət mövcuddur və biz də buna təbii hal kimi baxırıq. Almaniyada da müxalifət var, ingilislərdə, yəhudilərdə və digər ölkələrdə də. Təbii ki, biz özümüzü onlarla müqayisə edə bilmərik. Avropanı özümüzə nümunə götürə bilmərik. Avropanın elə nümunələri var ki, biz onları nəinki qəbul edə bilmərik, onlardan uzaq olmalıyıq, bunlar bizim əxlaqımıza, mənəviyyatımıza yabançı hallardır.

Amma qardaş Türkiyə, qardaş türk xalqı isə başqa məsələ. Ulu öndər Heydər Əliyev çox düzgün buyurmuşdur: "Biz bir millət, iki dövlətik." Ən azı, şəxsi maraqlar gözümüzü bağlamasa, türk qardaşlarımızdan nümunə götürməliyik. İstər zəlzələlər baş verəndə, istər çevrilişlərə cəhd olunanda, ümumiyyətlə hər hansı təbii, iqtisadi, siyasi böhran baş verəndə türk xalqı dövlətin, dövlətçiliyin ətrafında vahid yumruq kimi birləşir, iqtidar-müxalifət söhbəti aradan qalxır. Türk xalqının elə gücü, qüdrəti də birliyindədəir, monolit, sarsılmaz milli şüurunda, milli təfəkküründədir, türkçülüyündədir, bir bayraq altında birləşməyindədir.

Bəs biz niyə qan qardaşlarımıza oxşaya bilmirik? Mingəçevirdə qəza baş verir, işıqlar sönür, müxalifət sevinir, quraqlıq olur, su çatışmır, müxalifət sevinir, neftin qiyməti ucuzlaşır, "beşinci kalon" az qala bayram edir, cəbhədə vəziyyət gərginləşir, ağzıgöyçəklər qızışır. Tovuzda növbəti erməni təxribatı baş verdi, şəhidlər verdik, yaralılırımız oldu, xalq ayağa qalxıb ürəyinin hökmü ilə Şəhidlər Xiyabanına yürüş etdi, milli şüur, milli birlik nümayiş etdirdik. Lakin axırda hansı öyrədilmiş qüvvə isə milli təntənəmizə başqa rəng verməyə çalışdı. "Allahu Əkbər" nidaları altında Milli Məclisin baş binasına daxil oldular, şüşə sındırdılar, lüstr qırdılar, binaya ziyan vurdular, düşməni özlərinə güldürdülər. Bu lazım idimi? Halbuki, "Allahu Əkbər" sədaları altında türklər düşmənləri diz çökdürüblər, ölkə alıblar, cəbhə yarıblar. Onsuz da hiss olunur, bilinir ki, bu külək hardan əsdi. Uşaq da bunu bilir, böyük də. "Beşinci kalon" nə qazandı?! Heç nə. "Beşinci kalon"un açıq söyüş ritorikası nədən xəbər verir? Ümumiyyətlə söyüşü tərbiyəsiz adam söyər. "Beşinci kalon" xalq demək deyil. Bu gün minlərlə vətənpərvər insan düşmənlə vuruşmaq üçün növbəyə dayanır, Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyir. Xalq öz Prezidenti ilə birlikdədir və heç bir təxribatçı bu birliyi sarsıda bilməz.

Z.MƏMMƏDOV

Birinci Qaralı kənd sakini Tamilə Novruz qızı Hüseynovanın adına verilmiş 29 iyul 2003-cü il tarixli, JN:206(KOD:80702038) nömrəli, JN-114Q (KOD:80702038) nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı və torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyinə görə etibarsız sayılır.

Həkim məsləhəti:GÜNVURMADAN QORUNUN!

İsti yay günlərində insan orqanizminə ciddi ziyan vuran xəstəliklərdən biri də günvurmadır. Günvurma günəş şüaları altında uzun müddət dayanmaqla bədəndə temperaturun kəskin şəkildə artması nəticəsində baş verir. Tərləmə, ürək döyüntülərinin artması, halsızlıq, kəskin susuzluq hissi, başağrısı, ürəkbulanması və digər bu kimi hallar günvurmanın əsas əlamətləridir.

Günvurma zamanı bədənin istiliyini tənzimləyən sistem pozulduğundan həddindən artıq su və duz itirilir. Qızdırma baş verir, təzyiq düşür, nəbz sürətlənir, həddindən artıq yorğunluq, ürəkdə ritmin pozulması, ruhi pozğunluq kimi hallar özünü göstərməyə başlayır. Əgər vaxtında tədbir görülməsə, bu çox ciddi ağırlaşmalara, fəsadlara gətirib çıxara bilər. Yaşlılar, uşaqlar, xroniki xəstəliyi, yüksək təzyiqi, tənəffüs, böyrək, diabet, ürək sistemi xəstəlikləri olanlar xüsusilə diqqətli olmalıdırlar.

Günvurmanın əlamətləri baş verdikdə belə insanlar yubanmadan sərin, hava axını olan yerə çıxarılmalı, geyimləri yüngülləşdirilməli, sinələri açılmalı, bədənləri yaş dəsmala bükülərək soyudulmalıdır. Belə vaxtlarda alına və boyuna soyuq kompres qoyulması, soyuq duş qəbul edilməsi faydalıdır. Xəstənin şüuru açıqdırsa, ona bol su və duzlu ayran verilməsi məqsədəuyğundur. Əgər huşunu itiribsə, yubanmadan xəstəxanaya çatdırılmalı, kompleks müalicə tədbirləri həyata keçirilməlidir. İtirilmiş suyu və duzları bərpa etmək üçün mayenin qəbulu vacibdir.

İsti yay günlərində spirtli, kofeinli içkilərdən uzaq olun. Ağır və yağlı yeməklərdən imtina edin. Tərəvəzlərə və meyvələrə üstünlük verin, onlardan bol-bol istifadə edin. Tez xarab olan qidalar (ət, süd, yumurta və sair) açıq vəziyyətdə saxlanmamalıdır. Qidaların hazırlanması və bişirilməsi zamanı gigiyena qaydaları ciddi şəkildə gözlənilməlidir. Belə havalarda geyimi də unutmaq olmaz. Açıq rəngli pambıq və kətan parçalara üstünlük verilməlidir. Paltarlar gen və rahat olmalıdır. Unutmayın ki, sintetik materiallardan tikilən geyimlər istinin bir az da artmasına səbəb olur.

Yadda saxlayın ki, saat 12-dən sonra havanın hərarəti getdikcə artmağa, yüksəlməyə başlayır. Belə saatlarda dənizdə, açıq hovuzlarda çimmək, günəş vannası qəbul etmək, çöldə idman etmək olmaz. Günəş vannasını yalnız səhər və axşam tərəfi vaxtlarda qəbul etmək lazımdır. Zərurət olmadıqda günorta saatlarında çölə çıxmayın. Çıxarsınızsa, özünüzlə mütləq sərin su götürün. İstər evlərinizin, istərsə də ofislərinizin havalandırılmasına diqqət yetirin. İsti havalarda sərinkeşlərdən istifadə də əhvalınızı yaxşılaşdırar.

Nəqliyyatsız həyatımızı təsəvvür etmək mümkün deyil. Bağlı və dayanmış vəziyyətdə olan avtomobilin içində uzun müddət qalmayın. Nəqliyyat vasitələrini də tez-tez kifayət qədər havalandırmaq lazımdır. Sərinkeşi olmayan avtomobildə uzun yol getmək çətindir. Elə etmək lazımdır ki, sərinkeşin soyuğu birbaşa üzərinizə vurmasın. Açıq havada, çöl şəraitində işləyənlər xüsusilə risk altındadırlar. Ona görə də belə şəraitdə çalışanların iş vaxtı düzgün nizamlanmalıdır. Saat 12:00 ilə 16:00 arasında onların işlərinin dayandırılması məqsədəuyğun olardı. Bir sözlə, istidən qorunmaq lazımdır.

Q. PİRƏLİYEV

Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərindəki "BZ" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 420 Sifariş № 16 Bir nömrənin qiyməti: 40 qəpik.